

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

05 oktyabr 2024-cü il, şənbə
№ 183 (6769)
Qiymәti 60 qәpik




# Azərbaycan Prezidenti xəbərdarlıq etdi

## İlham Əliyev: Heç kim bizim səbrimizlə oynamasın!

Bax səh. 2

## Sabitlik və inkişaf adası...

Bax səh. 4

## Şərqi Zəngəzura həyat verilir

Güclü və məsuliyyətli dövlət olan Azərbaycan Vətən müharibəsi başa çatdıqdan sonra vaxt itirmədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işlərinə başlayıb. Nəzərdə tutulan layihələrin miqyası və işlərin həcmi kifayət qədər böyükdür. Otuz illik işğal dövründə təxminən 11 min kvadratkilometrlik ərazidə hər şey - mülki infrastruktur, yaşayış evləri, sosial təyinatlı obyektlər, tarixi mədəni-dini abidələr erməni vandalizminə məruz qalaraq dağıdılıb. İndi bəhs olunan ərazilərdə hər şey yenidən qurulur. Prezident İlham Əliyev aparılan quruculuq işləri ilə bağlı Özünün mühüm tapşırıqlarını verib və layihələrin reallaşdırılmasına şəxsən nəzarət edir. Artıq dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərə səfərləri müntəzəm hal alıb. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva...

Bax səh. 3



İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

Translate Tweet

8:33 PM · Oct 5, 2020 · Twitter for iPhone

Bax səh. 5

## Zəfərə 35 gün qalırdı...

## Dost köməyi...

Belarusun paytaxtı Minskdə rəsmi səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədov və həmkarı Roman Qolovçenko iki ölkə arasında iqtisadi əməkdaşlıq imkanlarını və gələcək birgə layihələrin vəziyyətini müzakirə ediblər. Tərəflər Azərbaycan-Belarus arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu ifadə edərək son illərdə qarşılıqlı hörmət və dərin etimad mühitində əlaqələrin inkişafına töhfə verdiklərini, xüsusilə də hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin təmasların möhkəmlənməsinə dərin zəmin yaratdığı bəyan ediblər. Hazırda iki ölkənin birgə səyləri nəticəsində müxtəlif iqtisadi, siyasi, sosial, humanitar sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın dinamikliyinin daha da artdığı, mal mübadiləsi və investisya həcmlərinin inkişafının qeydə alındığı vurğulanıb.

Azərbaycanın və Belarusun Baş nazirləri səmərəli görüşün yekununda mühüm sazişə imza atıblar. Söhbət Ağdamın Qızıl Kəngərli kəndində Aqroşəhərciyin yaradılması üzrə...

Bax səh. 5

## ABŞ Konqresinin “ənənəsi”...

Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması beynəlxalq birliyin diqqət mərkəzindədir. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması vacibdir. Azərbaycan dövləti regionun gələcəyi naminə qarşı tərəfə beynəlxalq hüquq normalarına əsaslanan sülh sazişini imzalamağı təklif edib. Uzun müddətdir ki, tərəflər arasında sülh sazişi layihəsi müzakirə olunur.

İki ölkə arasında münasibətlərin normallaşdırılması prosesi ilə bağlı bəzi böyük dövlətlər vasitəçilik təşəbbüsü ilə çıxış ediblər. ABŞ da belə təşəbbüslər irəli sürən dövlətlərdən biridir. ABŞ rəsmiləri mütəmadi olaraq Azərbaycana və Ermənistana səfərlər edir, münasibətlərin normallaşdırılması üçün müxtəlif təkliflər verirlər. Sentyabrın 26-da isə rəsmi Vaşinqtonun təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş olub. Bu görüş nazirlərin Nyu-Yorkda BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirakı çərçivəsində baş tutub. Görüşdə ABŞ dövlət katibi Antoni Blinken də iştirak edib. Rəsmi Vaşinqton tərəflər arasında sülh prosesini dəstəklədiyini növbəti dəfə bəyan edib...

Bax səh. 4

## Rəqəmsal sektorun gənc biznes fəalları

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir trendlərindən biri olan startap ekosistemi artıq biznes ideyalarının mükəmməl aləti kimi özünü doğrultmaqdadır. Bir neçə ildir ki, fəaliyyət göstərən “Startap Azərbaycan” platforması startaplar, investorlar, maliyyə fondları, yeni rəqəmsal alətlərə dəstək verməklə gənc biznes komandasının təşviqinə və böyüməsinə səbəb olub. Bu motivasiyalar sayəsində qlobal süni intellekt ailəsinə daxil olan Azərbaycan startapları təkcə son bir ildə 2,2 milyon dollar həcmində investisiya cəlb etməyə nail olub. Həmin sərmayələr hesabına startap ideyaları üzrə inkubasiya proqramlarının sayı da genişlənməkdədir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov Azərbaycan İnnovasiya Mərkəzinin açılış mərasimində bildirib ki, 2023-2024-cü illərdə nazirlik yanında İnnovasiya və Rəqmsal İnkişaf Agentliyinin dəstəklədiyi 20 inkubasiya və akselerasiya proqramına 600-dən çox komanda müraciət edib, 165 minimal işlək məhsulu olan startap ərsəyə gəlib. Bu, qısa bir dövr üçün çox ümidverici göstəricidir və qarşıdakı illərdə hədəf aktiv innovativ layihələrin sayının 500-ə çatdırılmasıdır. Mövcud dinamika və ideya ötürücülüyü həmin rəqəmlərə daha tez çatmağın...

Bax səh. 5

## BRICS-in yeni siyasi gündəmi

Yarandığı 18 ildə mühüm inkişaf yolu keçmiş BRICS hazırda dünyanın yeni “iqtisadi gündəmi” adlandırılmaqdadır. 2006-cı ilin iyununda Braziliya, Rusiya, Hindistan, Çin iqtisadiyyat nazirlərinin iştirakı ilə Sankt-Peterburq İqtisadi Forumu çərçivəsində yaradılan qurum üzvləri arasındakı ikitərəfli münasibətlər siyasi kurslara qarışmamaq şərti ilə, bərabərlik və qarşılıqlı fayda əsasında inkişaf etdirilir. Bu isə təşkilatın qısa zamanda xüsusilə irəliyə doğru addımlamasına şərait yaradıb. İlk yaranan dövrlərdə təşkilatın adı BRIC olsa da, 2011-ci ildə bu sıraya Cənubi Afrika Respublikasının da qoşulması təşkilatın adında da yeniliyə yol açdı.

Vurğulandığı kimi təşkilat son dövrlərdə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub - tərəfdaşlığın məqsədi “ardıcıl, fəal, praqmatik, açıq və şəffaf dialoq, əməkdaşlıq” kriteriyaları üzərində formalaşdırılıb. Yaxın perspektiv üçün gözlənti isə tərəfdaşlıq nəticəsində üzv ölkələrin dünya miqyasında iqtisadi və siyasi mövqelərini möhkəmləndirməsidir. İldə bir dəfə - reqlamentə uyğun olaraq keçirilən sammitdə isə ətraf mühit problemləri, yoxsulluğun aradan qaldırılması, sosial inkişaf, maliyyə institutlarının əlaqələndirilməsi və bu kimi siyasi-iqtisadi həyatın bütün müvafiq aspektləri müzakirə olunur...

Bax səh. 6

## 5 aprel görüşünün nəticələri...

ABŞ-ın Ermənistan üzərindən Cənubi Qafqazla bağlı “siyasətinin” detalları özünü göstərməkdədir. Bu ilin aprelində Brüsseldə baş tutan üçtərəfli ABŞ - Aİ - Ermənistan görüşünün Vaşinqton üçün vacib sayılan ən əsas məqamının regiona müdaxilə imkanlarının artırılması olması bəlli idi. ABŞ tərəfi bu görüş nəticəsində ortaya çıxan razılaşmada “hərbi predmetlərin” yer almadığını iddia etsə də, “tərəfdaşlığın” əsas hədəfinin bu olduğu açıq-aydın ortada idi. Bu məsələ son dövrlərdə daha da aktuallaşıb. Xüsusilə, bu ilin avqustunda Ermənistana gətirildiyi bildirilən ABŞ qüvvələri bu sirr üstündəki örtüyü qaldırdı. Ardından Ermənistan ilə ABŞ-ın birgə hərbi təlim keçməsi artıq bütün məsələlərlə bağlı əminlik formalaşdırır...

ABŞ-ın Ermənistanı öz maraqlarının poliqonuna çevirməsi faktı artıq sübuta ehtiyac duymur - iki ölkə arasında baş tutan demək olar ki, bütün görüşlər məhz bu mahiyyətə hədəflənib. Yeri gəlmişkən, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və ABŞ Müdafiə Kəşfiyyat İdarəsinin Avropa-Avrasiya Regional Mərkəzinin rəhbəri Patrik Prayor İrəvanda görüşüblər. Görüşdə Ermənistanla ABŞ arasında əməkdaşlıq istiqamətlərini müzakirə ediblər. Tərəflər, xüsusilə, ikitərəfli gündəliyin bir sıra məsələləri...

Bax səh. 7

## Adam Şiffə açıq məktub




Bax səh. 4

## AŞPA-ya daha bir etiraz...

Bax səh. 6

# Azərbaycan Prezidenti xəbərdarlıq etdi

## İlham Əliyev: Heç kim bizim səbrimizlə oynamasın!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.







### Biz hər il bu gözəl günü qeyd edəcəyik

Cəbrayıl şəhərinin azad olunmasının dördüncü ildönümü münasibəti ilə cəbrayıllıları və bütün Azərbaycan xalqını təbrik edən Prezident İlham Əliyev xatırladıb ki, Onun sərəncamı ilə 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü elan edilib: "Əminəm ki, bundan sonra biz hər il bu gözəl günü qeyd edəcəyik.

Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi. O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi". Ordumuz, Silahlı Qüvvələrimizin böyük peşəkarlıq, qəhrəmanlıqla işğalçıları Cəbrayıl şəhərindən qovduqlarını bildirən dövlətimizin başçısı bütün şəhidlərimizə Allahdan rəhmət diləyib.

Cəbrayıldan bir neçə gün sonra keçirilmiş uğurlu Hadrut əməliyyatından söz açan dövlətimizin başçısı vurğulayıb ki, bu, çox böyük peşəkar əməliyyat olub: "Düşmənin orada çox möhkəm istehkam mövqeləri var idi, özü də bütün təpələrdə onlar yerləşmişdi, Cəbrayılda da, həmçinin. Şəhəri azad etmək üçün bizim qəhrəman övladlarımız bir neçə müdafiə xəttini yarmalı idi və bunu edə bilmişdilər.

Hadrutdan sonra Füzuli əməliyyatı oktyabrın 17-də uğurla başa çatmışdır və yolumuz həm Şuşaya, həm Zəngilan və Qubadlı istiqamətinə açılmışdır. Müzəffər Ordumuzun zəfər yürüşü bundan sonra daha sürətlə getmiş və qeyd etdiyim kimi, döyüş meydanında böyük yaşayış məntəqələrini - Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, rayonlarını, Laçın rayonunun bir neçə kəndini və nəhayət noyabrın 8-də Şuşa şəhərini azad edə bilmişik. Bütövlükdə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Beləliklə, Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu".

### Mən o yolu çox yaxşı xatırlayıram

Cəbrayılın yenidən qurulmasından bəhs edən dövlətimizin başçısı vurğulayıb ki, ilk növbədə, minalardan təmizləmə işləri aparılmalı idi, çünki xüsusilə keçmiş təmas xəttinə yaxın olan rayonların minalanması daha genişmiqyaslı idi: "İnfrastruktur layihələrinin icrası dərhal başlamışdır və bu gün Cəbrayıla gələn hər bir insan görür, həm köhnə yol, hansı ki, sovet vaxtında olan yol yenidən qurulmuşdur və mən o yolu çox yaxşı xatırlayıram. Çünki Zəfərdən sonra o yolla dəfələrlə bu bölgələrə gəlmişəm. Yeni dördzolaqlı magistral yol uğurla inşa edilir və Zəngilana qədər, Qubadlıya qədər və oradan da Laçına qədər davam edir.

Digər infrastruktur layihələrinin icrası da uğurla, sürətlə həyata keçirilir. Təkcə Cəbrayıl rayonunda yox, bütün azad edilmiş bölgələrdə. Dünən burada olarkən biz yeni məktəbin açılışını qeyd etdik və siz də bilirsiniz ki, gələn həftədən başlayaraq uşaqlar artıq məktəbə gedəcəklər. Bu yeni məhəllədə xəstəxananın tikintisi və müvəqqəti olaraq tibb məntəqəsi də nəzərdə tutulur. Əlbəttə, belə gözəl, gözoxşayan evlər həm dövlətimizin gücünü göstərir, həm də onu göstərir ki, keçmiş köçkünlərin yaşayış şəraitinin lazımi səviyyədə təmin edilməsi üçün Azərbaycan dövləti əlindən gələni əsirgəmir. Birinci məhəllədə çoxmənzilli 33 bina inşa edilib. Burada 712 mənzil inşa edilir. Bu mənzillərin bir hissəsi artıq istifadəyə verilib, bir hissəsinin də istifadəyə verilməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilir".



Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqlarda aparılan işlərin öz miqyasına görə xüsusi xarakter daşıdığını qeyd edib və bildirib ki, heç bir başqa yerdə işğaldan, müharibələrdən əziyyət çəkmiş ölkələr bu sürətlə və bu keyfiyyətlə bərpa işlərini bu günə qədər aparmamışlar: "Çünki bu işlər genişmiqyaslı və çox dəqiq planlar əsasında görülür. Hər bir şəhərin Baş planları təsdiq edilib. Hər bir kəndin bütün lazımi infrastrukturu nəzərdə tutulur. Dünən mən tikintisi gedən Horovlu kəndinin bərpası ilə tanış olmuşam. Bildiyiniz kimi, Horovlu da Cəbrayıl şəhəri kimi, eyni gündə azad edilmişdir və bir neçə aydan sonra, yəqin ki, gələn ilin birinci yarısında Horovluya da vətəndaşlar qayıdacaqlar". Dövlətimizin başçısı srağagün Cəbrayıl rayonunda yerləşən beş yeni müəssisənin təməlinin qoyulduğunu xatırladıb və vurğulayıb ki, görülən işlər bu torpaqlara bu torpaqların əsl sahiblərinin qayıtdığını sübut edir: "Mənfur düşmən 30 il ərzində bu əraziləri ancaq dağıdıb. Bizim bu görüşümüz də bu dağıntılar arasındadır.

Mən tarixi Zəfərimizdən sonra birinci dəfə Cəbrayıla gələndə dəhşətə gəldim. Biz bilirdik ki, ermənilər bizim torpaqlarımızda öz vəhşiliyini hər yerdə göstərmişlər. Bilirdik ki, ərazilərimizin böyük əksəriyyəti dağıntılar içindədir. Amma bu dərəcədə vəhşiliyi, qeyri-insani hərəkətləri təsəvvür etmək mümkün deyildi. Cəbrayılda demək olar ki, cəmi iki bina qalmışdı. Orada da erməni hərbçiləri yerləşmişdi. Qalan bütün şəhər, bax, bu cürdür və bunu görmək istəməyən, Ermənistana bu gün də dəstək verən, onların işğalçılıq siyasətinə bəraət qazandıran bəzi Qərb dövlətləri də gözlərini geniş açıb baxsınlar. Görürlər, amma görməzliyə vururlar. Bizi ittiham edirlər, bizə qarşı sanksiyalar tətbiq edilir".

Prezident çıxış etdiyi məkanda dağntıların olduğunu nümayiş etdirərək bildirib ki, bu dağıntılar təbii ki, bir müddətdən sonra söküləcək, bunların yerində yeni binalar inşa ediləcək, ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır: "Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil. Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik! Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq. Ancaq bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz.

Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə diz üstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın. O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblər qabağında diz üstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimizə nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik.

Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik. Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm. Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın".

### Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri nə fikirləşirlər?

### Bu suallara cavab tələb edirik!

Bütün bu vandallığa baxmayaraq Ermənistana qarşı 30 il ərzində bir dənə də sanksiya tətbiq edilmədiyini söyləyən dövlətimizin başçısı hansısa Qərb dövlətinin rəsmi nümayəndəsinin bir dəfə onlara irad tutmadığını təəssüf hissi ilə bildirib: "Onlar hətta dünyanın bir nömrəli təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə də məhəl qoymurdular. Halbuki Təhlükəsizlik Şurasının qətnamələri mütləq icra edilməlidir. 1993-cü ildə dörd qətnamə qəbul edilmişdir. Kimsə 2020-ci ilə qədər onlara bir söz dedi ki, sən o torpaqları işğal etmisən, oradan çıxmalısan? Xeyr. Minsk qrupu nə ilə məşğul idi - ancaq bu işləri malalamaqla, erməni işğalına müəyyən dərəcədə bəraət qazandırmaqla və bizi alçaldıcı sülhə təhrik etməklə. Minsk qrupunun fəaliyyəti bundan ibarət idi. Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın. Bax, bütün bunları biz eşitmişik, həm rəsmi çıxışlarda, həm bağlı qapılar arxasındakı təmas əsnasında. Bizim isə mövqeyimiz birmənalı, qətiyyətli idi və dəyişməz idi: bir qarış torpaq işğal altında qala bilməz! Məsələ sülh yolu ilə həllini tapmasa, biz məsələni müharibə yolu ilə həll edəcəyik. Mənim sözlərim bütün arxivlərdə vardır. Buna nə desələr yaxşıdır?! Müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni, Qərb dövlətləri, ilk növbədə, bizi məğlubiyyətlə barışdırmaq üçün bütün çirkin əməllərdən istifadə edirdilər ki, təki biz torpaqları işğaldan azad etməyək. Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin guya həlli ilə məşğul olurdular. Amma onların əsl niyyəti bizi daim təzyiq altında saxlamaq və bu torpaqları Ermənistana bağışlamaq idi. Onların təklifləri nədən ibarət idi? Ondan ibarət idi ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə müstəqillik verilsin. Axı, bu riyakarlığın, ikiüzlülüyün dərəcəsi olmalıdır, yoxsa yox?! Bu gün Rusiya-Ukrayna müharibəsinə baxın, Qərb dövlətləri, Fransa, Amerika, o birilər nə deyirlər? Deyirlər, Ukraynanın ərazi bütövlüyü bərpa edilməlidir, Ukrayna silahdan istifadə etməlidir. Bütün növ silahları Ukraynaya verirlər. Yaxşı, bəs bizim işğal altında olan torpaqlarımıza niyə münasibət fərqli idi? Axı, bizim də ərazi bütövlüyümüz pozulmuşdu. Bizim insanlar - 1 milyon insan evsiz-eşiksiz qalmışdır. Kim bizə kömək edirdi? Vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, çadırlarda 1 milyon insan yaşayanda niyə bu dərəcədə ikiüzlülük göstərilirdi? Bu suallara cavab tələb edirik. Amma cavabı biz harada görürük? Yenə də anti-Azərbaycan addımlarında. Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz - Cəbrayılın sakinləri.

Başqa yerlərdə də bütün Azərbaycan kəndlərini bax, bu günə qoyublar. Məscidlərimizi dağıdıblar, heyvanxana düzəldiblər, inək-donuz saxlayıblar. Qərbdə bir adam deyib ki, Azərbaycanın mədəni irsi talan edilir, dağıdılır, təhqir edilir? Yox. Ancaq bizi nədə ittiham edirlər? Guya biz hansısa tarixi irsi məhv edirik. Tamamilə əsassızdır. Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, - özü də bütün dünyanın gözü qarşısında, - bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün? Bax buna görə, buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni, necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir. Açıq demək lazımdır, yəni diplomatik dillə qoy, diplomatlar danışsın. Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam".

Bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüuru olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin uğuruna sevinməyən dövlətlər öz mətbuatlarında, dırnaqarası qeyri-hökumət təşkilatlarında Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar: "Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni, gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar".

# Zəfərə 35 gün qalırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 9-cu günü**

**05.10.2020**

Oktyabrın 5-də səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin Radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb. Bütün cəbhə boyu sıxışdırılan düşmən artıq bir neçə gündür ki, Ermənistan ərazisindən Azərbaycan ərazisində əhalinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistematik raket zərbələri endirib. Raketlərin Ermənistan ərazisindən buraxıldığını təsdiq edən video təqdim olunub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib.

***

Beyləqan, Bərdə və Tərtər şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Adekvat tədbirlər görülüb.

***

Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub.

***

Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri atəşə tutulub.

***

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq keçirilib. Brifinq iştirakçılarının diqqətinə işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatların gedişatı və azad olunmuş ərazilər, düşmən qüvvələrinə vurulmuş ziyan barədə məlumat verilib. Qonaqlara təmas xəttindən xeyli uzaqda yerləşən Azərbaycanın şəhər və rayonlarına düşmənin raket və artilleriya zərbələri endirməsi barədə də ətraflı məlumat çatdırılıb.

Düşmənin açdığı atəş zərbələri nəticəsində dinc əhali və mülki infrastruktura dəyən ziyan, eləcə də düşmən ordusunun öz hərbi qulluqçularına qarşı göstərdiyi qeyri-insani münasibət və hərəkətlər barədə faktlar da diqqətə çatdırılıb.

***

Ermənistan silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutub.

**Vətən müharibəsinin 10-cu günü**

**06.10.2020**

• Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə dövlətimizin başçısı deyib ki, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsində önəmli rol oynayır.


İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

Translate Tweet

8:33 PM · Oct 5, 2020 · Twitter for iPhone

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə verib.

• Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və hərbi texnikalarının videogörüntülərini paylaşıb.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində həlak olmuş şəxslərin sayı 27-yə, xəsarət alanların sayı isə 141-ə çatıb.

**Vətən müharibəsinin 11-ci günü**

**07.10.2020**

• Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib.

• Azərbaycan Prezidenti İlham Əliyev CNN-Türk televiziyasına müsahibə verib.

• Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib.

• "Azərkosmos" ASC işğaldan azad olunmuş Suqovuşan ərazisinin "Azersky" peykindən əldə edilmiş təsvirini yayıb.

# Şərqi Zəngəzura həyat verilir

**Güclü və məsuliyyətli dövlət olan Azərbaycan Vətən müharibəsi başa çatdıqdan sonra vaxt itirmədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işlərinə başlayıb. Nəzərdə tutulan layihələrin miqyası və işlərin həcmi kifayət qədər böyükdür. Otuz illik işğal dövründə təxminən 11 min kvadratkilometrlik ərazidə hər şey - mülki infrastruktur, yaşayış evləri, sosial təyinatlı obyektlər, tarixi mədəni-dini abidələr erməni vandalizminə məruz qalaraq dağıdılıb. İndi bəhs olunan ərazilərdə hər şey yenidən qurulur. Prezident İlham Əliyev aparılan quruculuq işləri ilə bağlı Özünün mühüm tapşırıqlarını verib və layihələrin reallaşdırılmasına şəxsən nəzarət edir. Artıq dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərə səfərləri müntəzəm hal alıb. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şərqi Zəngəzura növbəti səfərlərini edərək bir sıra açılış və təməlqoyma tədbirlərinə qatılıblar.**







## Cəbrayıl Şəhəri Günündə sakinlərin qayıdış sevinci

Vətən müharibəsinin səkkizinci günündə - oktyabrın 4-də Prezident İlham Əliyevin xalqa müraciəti ölkəmizdə uşaqdan - böyüyə, cavandan - qocaya hamının qəlbini qürur, iftixar və sevinc hissi ilə doldurdu. Həmin müraciətdə dövlətimizin başçısı Vətən müharibəsində ilk böyük qələbəmizin müjdəsini verərək qəlbinin dərinliklərindən gələn sevinc hisslərini xalqımızla bölüşürdü. "...Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi", - deyə müraciətdə bildirilirdi.

Cəbrayıl Vətən müharibəsində işğaldan azad olunan ilk şəhərdir. Bu, haqq savaşımızda növbəti böyük uğurların başlanğıcı oldu. Vətən müharibəsi başa çatandan az sonra - 2020-ci il noyabrın 16-da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan Bayrağını ucaltdı. İndiyədək Prezident İlham Əliyev azad olunmuş Cəbrayıl rayonuna bir neçə dəfə səfər edərək müxtəlif obyektlərin təməlqoyma mərasimlərində iştirak edib, aparılan tikinti işləri ilə tanış olub. Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə Cəbrayıl rayonunda çoxsaylı layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Ötən il iyulun 31-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncam imzalayıb. Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əbədiləşdirmək məqsədi daşıyan Sərəncama əsasən, 4 oktyabr - Cəbrayıl Şəhəri Günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

Builki Cəbrayıl Şəhəri Günündə sakinlər qayıdış sevinclərini dövlətimizin başçısı və birinci xanımla bölüşüblər. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər. Artıq şəhər ilk sakinlərini qoynuna alıb. İndiyədək 133 ailə, ümumən 433 nəfər öz ata-baba yurduna dönərək orada tikilən rahat, geniş və işıqlı mənzillərdə yaşamağa başlayıb.

Bundan əvvəl isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar. Burada layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Həmçinin burada məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir. Qeyd edək ki, Horovlu kəndinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Cəbrayıl Şəhəri Günü ərəfəsində məktəblilər də gözəl hədiyyə alıblar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər. Ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

## Zəngilanda yaşayış məntəqələrinin bərpası və sosial infrastruktur quruculuğu diqqət mərkəzində

İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Zəngilanda da yaşayış məntəqələrinin bərpası və sosial infrastruktur quruculuğu diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub.

Zəngilan şəhərində dövlətimizin başçısının iştirakı ilə həmçinin beşinci və altıncı yaşayış komplekslərinin təməli qoyulub. Beşinci yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir. Kompleksin ərazisi məktəb və uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir. Yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə bu yaşayış kompleksində 334 mənzilin inşası nəzərdə tutulub.

Altıncı yaşayış kompleksi isə orta sıxlıqlı ərazidə, məktəb, uşaq bağçası, inzibati və ticarət zonalarının yaxınlığında yerləşəcək. Kompleks 3 hektar ərazidə yaradılacaq. Baş plana uyğun olaraq, kompleksdə 3, 4, 5 və 6 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Burada tikiləcək yaşayış binalarında 177 mənzilin olması planlaşdırılıb.

Səfər çərçivəsində Prezident İlham Əliyev Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə də tanış olub. Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksdəki hotel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Hotel binasında 111 nömrə, konfrans, iclas və ziyafət zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. İstirahət kompleksinin ərazisində, həmçinin 10 kottec də qonaqların istifadəsinə veriləcək.

## Şərqi Zəngəzurda yaradılan yeni istehsal müəssisələri

Yeni istehsal müəssisələrinin yaradılması və işğaldan azad olunmuş ərazilərə qayıdan soydaşlarımızın məşğulluğunun təmin edilməsi Qarabağın bərpa proqramının mühüm bir istiqamətini təşkil edir. Bəhs olunan səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şərqi Zəngəzurda daha bir neçə istehsal müəssisəsinin açılışına və təməlqoyma tədbirlərinə qatılıblar. O cümlədən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər.

Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi Parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında Litvanın "Dominari" şirkətinin mebel klasterinin, "Karabakh Stone" MMC-nin zavodunun , həmçinin "Prestij-Kimya" MMC-nin zavodunun təməlqoyma mərasimlərində iştirak ediblər.

Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin yaradılmasına start verilib. Prezident İlham Əliyev kompleksin təməlini qoyub. Qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Ölkəmizdən valyuta axınının qarşısının alınmasına töhfə verəcək alkoqolsuz içkilərin istehsalı kompleksi müasirlik və dayanıqlılıq prinsiplərinə uyğun avadanlıqlarla təmin ediləcək. Müəssisədə alternativ enerji mənbələrindən istifadə olunacaq.

Prezident İlham Əliyev Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin də təməlini qoyub. Müəssisə 3 sahədən - damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq.

Dövlətimizin başçısının iştirakı ilə Şərqi Zəngəzurda daha iki mühüm obyektin - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin və Zəngilan rayonunda "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışı baş tutub. Rəqəmsal İdarəetmə Mərkəzi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kV olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir. Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Zəngilan" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib. "Sarıqışlaq" SES isə Oxçuçayın üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - "Cahangirbəyli", "Şayıflı" və "Zəngilan" Su Elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib.

*Mübariz ABDULLAYEV*

# Sabitlik və inkişaf adası...

## Milli güc bütün təhlükələrə və təhdidlərə qarşı müdafiə funksiyasını uğurla yerinə yetirir

Bir müddət öncəyə qədər “söz dueli”ndən” ibarət olan lokal anlaşılmazlıqlar qlobal kataklizmlərə çevrilir. XXI əsrin ikinci onilliyinin ilk yarısında beynəlxalq aləm mühüm çağırışlarla üzü-üzə qalmaq məcburiyyəti yaşayır. Təəssüf ki, bu çağırışlar təhlükə, faciə və müharibə fonunda inkişaf etməkdədir. İstər Avropada, istərsə də Asiyada baş verənlərin proyeksiyası dünyanın iqtisadi-siyasi həyatına bu və ya digər şəkildə sirayət edir - hər kəsin diqqəti bu qarışdurmaların inkişaf trayektoriyalarını izləməyə kəsilib. Xüsusilə, dünyanın aparıcı coğrafiyaları bu kimi hallarda özünün həssaslıq indeksini gücləndirmək, refleksini artırmaq məcburiyyətində qalır. Yalnız az bir qism bu təhdidlərdən kənarda qala bilir - daxili və xarici siyasətində müstəqil mahiyyəti qorumağı bacaran, milli marağını ön plana çıxaran, sülhü və sabitliyi hədəfləyən və dəstəkləyən, beynəlxalq uzlaşmanın tərəfdarı kimi çıxış edən dövlətlər...

## Prezident İlham Əliyevin inkişaf strategiyası Azərbaycanda heç bir dövlətdə rast gəlinməyəcək reallıqlar formalaşdırıb

### Milli güc amili...

Bu gün siyasi-hərbi qarışıqlığın əsas coğrafiyası Yaxın Şərqdir desək, yanılmarıq. Aylardır davam edən bu və ya digər lokal hərəkətlənmələr dinamizm qazanıb - sirr deyil ki, Yaxın Şərqdə baş verənlər hər kəs üçün maraq kəsb edir və diqqətlə izlənir. Paralel olaraq müharibələrin təsirindən yayınmaq milli güc potensialı “görünməz zireh” kimi özünü aktivləşdirir. Məhz milli güc amili bütün kataklizmlərə, qeyri-sabitliyə, terrora və nəhayət müharibələrə qarşı kontur-arqument kimi çıxış edir.

Azərbaycanı həm regional, həm də qlobal miqyasda fərqləndirən əsas parametrlərdən biri məhz milli güc amilini formalaşdırması, doğru istiqamətləndirməsi, möhkəm özüllər üzərində yaşatmasıdır. Milli gücü yaradan predmetlərə nəzər salaq. Ölkədə:

- İctimai-siyasi sabitlik hökm sürür;
- Cəmiyyət ilə dövlət arasında qarşılıqlı etimad ən yüksək səviyyədədir;
- Xarici siyasət kursu yalnız milli maraqları ehtiva edir;
- İqtisadi inkişaf bütün parametrlər üzrə təmin olunur;
- Sosial təminat ildən-ilə gücləndirilir;
- Dövlət - vətəndaş münasibətlərində müasir uğurlu standartlar məyyənləşdirilir;
- Hərbi güc daha da inkişaf etdirilir;
- Nəhayət, ideoloji əsaslar möhkəmləndirilir.

Bu kriteriyalar ayrı-ayrılıqda dövlətin prioritetləri sayılsa da, bir yerdə milli güc kimi xarakterizə olunur. Və bu gün Azərbaycanda milli güc bütün təhlükələrə və təhdidlərə qarşı müdafiə funksiyasını uğurla yerinə yetirir.



Bəzən siyasi analitiklər hazırki kataklizmləri müasir qloballaşmanın yaratdığı tendensiya adlandırır və burada bir qanunauyğunluq yaratmağa çalışırlar- burada həqiqət payı olduğu qədər, istisnalar da mövcuddur. Məsələn, 2020-ci il Vətən müharibəsində qələbə qazanan Azərbaycan özünün tarixi “tolerant və sabitlik nümunəsi” prototipinə xəyanət etmədi - əksinə, qələbəmizlə böyük bir regionun yeni inkişaf mərhələsini formalaşdırmağa çalışdıq. Azərbaycan post-müharibə dövründə əməkdaşlıq platformasının geniş və fərqli sivilizasiyalara malik auditoriyaları əhatə etməsi üçün səy göstərdi və bu gün də həmin səylər davam etdirilir. Milli kimlik

### Yaxın coğrafiyalarda yaşananlar...

bağlılığı fonunda Türk dövlətləri ilə, inanc birliyi bağlılığı fonunda müsəlman dünyası ilə, müasir dünya çağırışları fonunda Qərb dünyası ilə bərabərhuqüqlu tərəfdaşlıq elementləri bugünkü mənzərəni yaradır:

- Mərkəzi Avropada baş verən müharibə səbəbilə yaranan qütbləşmə Azərbaycana təsir etməyib;
- Yaxın Şərqdə yaşananlar Azərbaycanın “sabitlik adası” tezisini yenidən aktuallaşdırır;
- Bu qədər gərginliyin arasında Azərbaycan yenə də həqiqət, hüquq və ədalət üçün mübarizə aparır - neokolonialist maraqların bloklanması, istismarçı imperialist hərisliklərin tormozlanması, tapdanan və ya bəzi məqamlarda tanınmayan insan hüquqlarının bərpası uğrunda mübarizə aparır.

Bu Azərbaycan reallığıdır - biz yaşadığımız ölkənin real göstəriciləri ilə yerləşdiyimiz bölgədə, bütövlükdə yaxın coğrafiyamızda sabitiliyin və inkişafın nümunəsi kimi çıxış edirik.

### Milli birlik simvolu...

Qeyd edilən parametrlərə nail olmaq isə asan deyil - xüsusilə, Cənubi Qafqaz kimi geostrateji bir məkanda yerləşən Azərbaycan üçün bütün “dəngələrin” qorunması olduqca çətindir. Bunun üçün siyasi fəhm, siyasi iradə, siyasi qətiyyət vacib şərt kimi çıxış edir. Qlobal miqyasda hökm sürən mürəkkəb şəraitdə Azərbaycanın öz sabit inkişaf trayektoriyasında inamla irəliləməsi olduqca mühüm bir göstəricidir - həm daxili, həm də beynəlxalq müstəvidə ictimai-siyasi sabitliyin təmin olunması isə birmənalı şəkildə Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir. Bu gün dünyada mühüm amil məhz LİDER amilidir - bəlkə də yaşanan kataklizmlərin bir çoxu məhz bəzi liderlərin populizm dalınca getməsindən, siyasi səriştəsizliyindən doğur. Prezident İlham Əliyevin inkişaf strategiyası isə mühüm təməllərə əsaslanır. Bu gün Azərbaycanda heç bir dövlətdə rast gəlinməyəcək reallıq formalaşıb:

- Ölkədə bütün sosial təbəqələrin nümayəndələri Prezident İlham Əliyevə inanır və etibar edir;
- Siyasi konfiqurasiya sağlam ideoloji tarazlığı özündə əks etdirir - milli maraqlar, dövlət maraqları ön planda tutulur;
- Prezident dövlətin milli birlik simvolu kimi çıxış edir - ölkə başçısının fikirləri, verdiyi vədlər cəmiyyətdə etalon kimi qəbul olunur və onların həyata keçiriləcəyinə heç bir şübhə yeri qalmır. Ən sadə və real misal: 4 il öncə baş vermiş müharibədə əldə olunan qələbənin əsasında dayanan ən əsas məqamlardan biri Prezident İlham Əliyevin ifadə etdiyi “ Biz hər şeyi vaxtında edəcəyik” frazasına dövlətin, xalqın inamı idi - bu inam, artıq üstündən 4 il ötən qələbənin təməl bazası olmaqla yanaşı, gələcək hədəflərimiz üçün də bir işıqdır. Bu günün fonunda həmin hədəflər yeni tarixi bir mərhələ yaradır.

### Azərbaycanı fərqləndirən cəhət...

Nəhayət, qarşıdakı perspektivə inam dövlətimizin sabit inkişafının əsas meyarı kimi çıxış edir. “Xalq - hakimiyyət birliyi bütün çətinliklərin öhdəsindən gəlir” tezisi öz real nəticələrini məhz Azərbaycanın misalında təsdiqlədi. Azərbaycandakı mövcud sabit və təhlükəsiz durum xalq - hakimiyyət tandeminin qarşılıqlı şəkildə həm öz vəzifəsini, həm məsuliyyətini yerinə yetirməsindən, həm də inamın sarsılmazlığından irəli gəlir. Bizi dünyanın müasir hərbi çaxnaşmalarından, qarşıdurmalardan qoruyan ən böyük meyar məhz budur: xalq- hakimiyyət birliyinin milli maraqlar ətrafında sıx birləşməsi, dövlətin inkişaf hədəflərinin düz müəyyənləşdirilməsi, strateji inkişaf yolundakı inam və etimad...

***Pərviz SADAYOĞLU***

# ABŞ Konqresinin “ənənəsi”...

## İcma: Konqresmenlərin bu addımı təkcə Azərbaycana deyil, dünyaya və iqlim dəyişikliyi ilə bağlı beynəlxalq səylərə qarşı yönəlib

**Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması beynəlxalq birliyin diqqət mərkəzindədir. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması vacibdir. Azərbaycan dövləti regionun gələcəyi naminə qarşı tərəfə beynəlxalq hüquq normalarına əsaslanan sülh sazişini imzalamağı təklif edib. Uzun müddətdir ki, tərəflər arasında sülh sazişi layihəsi müzakirə olunur.**

### Konqresmenlər Antoni Blinkenə niyə müraciət edib?




İki ölkə arasında münasibətlərin normallaşdırılması prosesi ilə bağlı bəzi böyük dövlətlər vasitəçilik təşəbbüsü ilə çıxış ediblər. ABŞ da belə təşəbbüslər irəli sürən dövlətlərdən biridir. ABŞ rəsmiləri mütəmadi olaraq, Azərbaycana və Ermənistana səfərlər edir, münasibətlərin normallaşdırılması üçün müxtəlif təkliflər verirlər. Sentyabrın 26-da isə rəsmi Vaşinqtonun təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş olub. Bu görüş nazirlərin Nyu-Yorkda BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirakı çərçivəsində baş tutub. Görüşdə ABŞ dövlət katibi Antoni Blinken də iştirak edib. Rəsmi Vaşinqton tərəflər arasında sülh prosesini dəstəklədiyini növbəti dəfə bəyan edib.

Lakin ABŞ administrasiyanın bu mövqeyinə rəğmən Konqresdə Cənubi Qafqazda sülhün deyil, gərginliyin davam etməsinə maraqlı olan qüvvələr mövcuddur. Konqresin bir sıra üzvlərinin beynəlxalq hüquqa zidd olaraq işğalçı Ermənistanı və erməni separatizmini dəstəkləməsi qəbulolunmazdır. Həmin konqresmenlər Azərbaycan haqqında qərəzli bəyanatlar verərək ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa çalışırlar.

Təəssüf ki, ABŞ Konqresi bu ziyanlı “ənənə”sindən əl çəkmək istəmir. Belə ki, oktyabrın 3-də bir qrup konqresmen ABŞ Dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz mövqe ifadə ediblər. Konqresmenlər Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərin 29-cu görüşünə (COP29) ev sahibliyi etməsindən istifadə edərək, Ermənistanın gündəliyinə və regionda yenidən münaqişə yaratmağa xidmət edən bütün məsələlərin, o cümlədən müharibə cinayətlərinə görə məsuliyyət daşıyanların azadlığa buraxılması kimi beynəlxalq hüquqa zidd məsələlərin irəlilədilməsinə çalışıblar.

### Azərbaycanın COP29-a ev sahibliyi etməsinin önəmi

Məsələ ilə bağlı bəyanat verən Qərbi Azərbaycan İcması ABŞ konqresmenlərinin bu addımını açıq-aşkar şantaj kimi dəyərləndirib. “Əvvəla, qeyd edək ki, Azərbaycanın COP29-a ev sahibliyi etməsi onun ümumbəşəri problemlərin həllinə verdiyi töhfədir. İkincisi, Azərbaycanın COP29-a ev sahibliyi etməsi ilə bağlı qərar kon-




vensiyaya tərəf dövlətlərin yekdilliklə dəstəklədiyi qərardır. Konqresmenlərin sözügedən COP29 məsələsindən şantaj vasitəsi kimi istifadə cəhdləri təkcə Azərbaycana deyil, bütövlükdə dünyaya və iqlim dəyişikliyi ilə bağlı beynəlxalq səylərə qarşı yönəlib”,-deyə bəyanatda qeyd olunub. Bildirilib ki, şantaj xarakterli müraciətin müəlliflərində Azərbaycana qarşı nifrət o qədər güclüdür ki, onlar azərbaycanlılara qarşı etnik və dini əsasda ayrı-seçkiliklərini, o cümlədən bir milyondan artıq azərbaycanlının Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan ərazilərindən etnik təmizləməyə məruz qalmasına, həmin ərazilərin Ermənistan tərəfindən viran qoyulmasına və minalanmasına biganəliklərini heç gizlətməyə də çalışmayıblar. Müraciətin üslubu və məzmunu onun ABŞ Dövlət Departamentində tərtib edilmiş olmasına şübhə yeri qoymur.

Qərbi Azərbaycan İcması Amerika Birləşmiş Ştatlarından Azərbaycana qarşı şantaj və irqi ayrı-seçkilik siyasətini, eləcə də regionda yeni münaqişə yaratmaq cəhdlərini dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edib.

Əslində, bu, Konqres tərəfindən ilk belə hal deyil. Qeyd etdiyimiz kimi, ABŞ Konqresinin Ermənistana lobbiçilik edən üzvləri vaxtaşırı olaraq Azərbaycana qarşı qərəzli mövqe sərgiləyirlər. Həmin konqresmenlərin ABŞ-dakı erməni təşkilatı olan Amerika Erməni Milli Konqresi (ANCA) tərəfindən maliyyə dəstəyi alması hər kəsə məlumdur. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Ermənistana havadarlıq edən beynəlxalq dairələr arasında ABŞ konqresmenləri də “fəallıqları” ilə seçilirlər.

### Konqresmenlər COP29-u qərəzli kampaniyaları üçün “fürsət” bilir?

Faktlara diqqət yetirək. Ötən ilin noyabrında Konqresdə Azərbaycanın öz suverenliyinin bərpasından narahat olan konqresmenlər “dinləmələr” təşkil etmişdilər. Həmin dinləmələrdə qurumun üzvləri ilə yanaşı, Dövlət Departamentinin rəsmi şəxsləri də ölkəmizə qarşı əsassız iddialar səsləndirmişdilər. Bu ilin iyul ayında isə Nümayəndələr Palatasının üzvləri - Anna Eşu və Kris Smit Azərbaycanı guya “Qarabağın erməni əhalisinə qarşı etnik təmizləmə apardığına görə” “qınayan” ikipartiyalı qətnamə layihəsini təqdim ediblər. Həmçinin, bir müddət öncə konqresmen Adam Şiff və 47 tərəfdarı dövlət katibi Antoni Blinkenə məktub yazaraq “Qarabağda kökü kəsilməkdə olan erməni irsi” barədə “narahatlıqlarını” bölüşmüşdülər. Bundan başqa, mayın 13-də isə ABŞ Konqresinin 26 nəfərlik heyəti (onların içərisində 100 nəfərlik Senatdan cəmi 3 senator, 435 nəfərlik Nümayəndələr Palatasından isə cəmi 23 nümayəndə var) ABŞ dövlət katibi Antoni Blinkenə və ABŞ Prezidentinin baş müşaviri John Podestaya məktubla müraciət edərək, Azərbaycanın COP29-a sədrliyini əsassız və absurd ittihamlarla qaralamağa cəhd etmişdilər. Onların növbəti addımı isə sentyabrın 19-da ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında “Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan hüquqları” adlı dinləmələrin keçirilməsi oldu. Bütün bunlar sanki Konqresdə Azərbaycana qarşı “səlib yürüşü”nün təşkil olunması təsəvvürü yaradır.

Beləliklə, erməni lobbisinin maliyyəsi ilə fəaliyyət göstərən qüvvələr COP29-u Azərbaycana qarşı qərəzli kampaniya aparmaq üçün “fürsət” kimi görürlər. “Avroviziya-2012” və digər tədbirlər ərəfəsində də belə cəhdlər edilmişdi. Amma həmin qüvvələr unutmamalıdır ki, həmişə olduğu kimi bu dəfə də məkrli planları fiaskoya uğrayacaq.

***Nardar BAYRAMLI***

# Adam Şiffə açıq məktub



ABŞ Konqresində Ermənistandakı revanşistlərə maliyyə yardımı ayrılması barədə təşəbbüsləri Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri hiddətlə qarşılayıb.

Bir qrup Azərbaycan QHT-si “2024-cü il Artsax gəlirlərinin bərpası haqqında Akt” adlı qanun layihəsinin müəllifi olan ABŞ konqresmeni Adam Şiffə açıq məktubla müraciət edib.

Müraciətdə islamofob Adam Şiffə xatırladılır ki, erməni lobbi qruplarına istinad edərək, Ermənistan tərəfindən məcburi köçkün edilmiş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna diskriminativ yanaşma əxlaqi dəyərlərin təhqir edilməsidir. “750 min azərbaycanlının etnik təmizləməyə, Xocalıda soyqırımına məruz qaldığı və 30 ildən artıq bir müddət ərzində onların geri qayıtmaq hüququndan məhrum edildiyi vaxtda siz tam susdunuz. Ermənistanın yerləşdirdiyi minalar geri qayıtmaq hüququndan istifadə edən günahsız mülki insanları öldürməkdə və şikəst etməkdə davam etdiyi bir vaxtda siz yenə də susursunuz”. Müraciətdə belə deyilir. Azərbaycan QHT-ləri Adam Şiffi saxta, qərəzli məlumatlardan ibarət sənədi geri çəkməyə özündə cəsarət tapmağa dəvət edib: “Əks halda, indiki yanaşmanız nəinki Ermənistanın və Azərbaycanın sadə vətəndaşlarına fayda verməyəcək, həmçinin mühüm əhəmiyyət kəsb edən regionda ABŞ-ın maraqlarına böyük zərbə vuracaq”.

ABŞ konqresmeni Adam Şiffə müraciəti “Qarabağ İtkin Ailələri” İctimai Birliyi, “Xankəndi” Məcburi Köçkünlərə Dəstək İctimai Birliyi, “Qərbi Azərbaycan İcması”, “Minalar Əleyhinə Azərbaycan Kampaniyası”, “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyi, “Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı” İctimai Birliyi və digər tanınmış QHT-lərin sədrləri imzalayıblar.

Müraciət müəllifləri bildirib ki, tələsik hazırlanmış bu qanun layihəsi ayrı-seçkilik xarakteri daşıyır, birtərəfli və kontekstdən çıxarılmış, əsassız məlumatlar yığınıdır: “Biz başa düşürük ki, Azərbaycana qarşı ayrı-seçkilik etməyinizin əsas səbəbi etnik və dini simpatiyadır. Əgər bu təşəbbüs dəstəklənərsə, belə bir sənəd insan hüquqlarının və beynəlxalq hüququn pozulması olacaq”.

# Dost köməyi...

## Belarus azad edilmiş ərazilərdə Aqroşəhərciyin və sənaye parklarının yaradılmasına töhfə verəcək

Belarusun paytaxtı Minskdə rəsmi səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədov və həmkarı Roman Qolovçenko iki ölkə arasında iqtisadi əməkdaşlıq imkanlarını və gələcək birgə layihələrin vəziyyətini müzakirə ediblər. Tərəflər Azərbaycan-Belarus arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu ifadə edərək son illərdə qarşılıqlı hörmət və dərin etimad mühitində əlaqələrin inkişafına töhfə verdiklərini, xüsusilə də hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin təmasların möhkəmlənməsinə dərin zəmin yaratdığı bəyan ediblər. Hazırda iki ölkənin birgə səyləri nəticəsində iqtisadi, siyasi, sosial, humanitar sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın dinamikliyinin daha da artdığı, mal mübadiləsi və investisiya həcmlərinin inkişafının qeydə alındığı vurğulanıb.

Azərbaycanın və Belarusun Baş nazirləri səmərəli görüşün yekununda mühüm sazişə imza atıblar. Söhbət Ağdamın Qızıl Kəngərli kəndində Aqroşəhərciyin yaradılması üzrə layihələndirilmənin hazırlanmasına dair sənədin imzalanmasından gedir. Layihə sözügedən kənddə yeni aqrar modelin yaradılması ilə yanaşı, Ağdam rayonunda kənd təsərrüfatı istehsalının inkişafını təmin edəcək müasir sənaye komplekslərinin qurulması imkanlarının dəyərləndirilməsini, aqrar təchizat tədarükü sisteminin təşkili və digər məsələləri də ehtiva edir.

### Lukaşenkonun çağırışları öz faydasını verir...

Belarus hökuməti Azərbaycanda xüsusi önəm verilən və bu istiqamətdə dövlətin o cümlədən özəl biznes sektorunun xüsusi təşəbbüskarlığının müşahidə edildiyi müasir aqrar-sənaye təsərrüfatlarının, aqroparkların yaradılmasına öz dəstəyini göstərmək niyyətini və bu prosesdə birgə addımlar atmağa hazır olduğunu dəfələrlə bəyan edib. Bu istiqamətdə müxtəlif iqtisadi qurumlar arasında faydalı danışıqlar aparılıb.

Azərbaycanın öz ərazi bütövlüyünü tam təmin etdikdən sonra uzun illər işğal altında qalmış torpaqların dirçəldilməsi, reinteqrasiya proqramları əsasında yeni aqrar-sənaye komplekslərinin yaradılması istiqamətində başlatdığı işlərdə belaruslu biznes icmasının da iştirak etmək məsələləri müzakirə olunub.

Cari il mayın 16-da ölkəmizə səfər edən Belarus Prezidenti Aleksandr Lukaşenko azad edilmiş ərazilərə də baş çəkərək burada aparılan quruculuq və bərpa işləri ilə yaxından tanış olub, Belarusun bu proqramlarda yaxından iştirak etmək niyyətlərini bildirib. A. Lukaşenkonun bəyan etdiyi kimi uzun müddət səhraya çevrilmiş bu torpaqları dirçəltmək, infrastrukturları qurmaq, sosial və iqtisadi imkanları bərpa etmək Belarus hökumətinin, müxtəlif müəssisə və təşkilatların, iş adamlarının köməyindən istifadə oluna bilər. Öz ölkəsinin bu prosesdə Azərbaycanın yanında yer alacağını vurğulayan Belarus Prezidentinin "həmin torpaqların dirçəldilməsində bu yükün altına girməyə hazırıq və məsuliyyətlə bildirirəm ki, bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik" bəyanatı dost ölkənin həqiqi və səmimi iştirakçılıq niyyətinin etirafıdır.



### Qarabağda yeni aqrar modellər, birgə investisiya layihələri...

Dövlətin ən ali səviyyəsində Qarabağ və Şərqi Zəngəzurda quruculuğa töhfə vermək, iqtisadiyyatın müxtəlif sektorlarında icra edilən layihələrdə yer almaq barədə məqsəd və prioritetlərinin qəbul edilməsi Belarusun Böyük Qayıdış strategiyasında davamlı iştirakına zəmin yaradır. A.Lukaşenkonun həmin səfəri çərçivəsində imzalanmış sənədlər, o cümlədən, iqtisadiyyat, rəqabət, investisiyalar, ticarət, kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinə dair anlaşma memorandumları aqrar niyyətlərin gerçəkləşməsində iqtisadi-hüquqi baza olmaqla, dövlət və özəl sektorun nümayəndələrini birgə sərmayə təşəbbüskarlığına dəvət edir. Həmçinin, 2024-cü ilin iyun ayında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Belarus Ticarət və Sənaye Palatası arasında imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumu hər iki ölkənin sahibkarları arasında işgüzar əlaqələrin təşviqi, birgə investisiya layihələrinin reallaşdırılmasına dəstək mexanizmlərini özündə əks etdirir.

Məhz bu iqtisadi çağırışlara qoşulan Belarus şirkətləri azad ərazilərin zəngin iqtisadi resurslarının inkişafına öz təcrübələrini bölüşmək, xüsusilə də kənd təsərrüfatında ən qabaqcıl modellərini tətbiq etmək üçün praktiki addımlar atmağa başlayıb. MDB regionunda aqrar layihələr və aqrar-sənaye komplekslərinin inkişafına görə lider ölkələrdən biri olan Belarusun bu sahədəki zəngin təcrübəsi Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır. Həmin potensialları nəzərə alsaq iki ölkə arasında bu sahədə əməkdaşlığa yaxşı fürsətlər yaradır.

Belarus investorları Azərbaycanın azad ərazilərində aqrar tədarük mallarının istehsal və emalı şəbəkəsinin qurulmasında yaxın tərəfdaş kimi ölkəmizin kənd təsərrüfatı istehsalçılarını zəruri ehtiyac duyduqları xammal və emal komponentləri ilə təmin olunmaq imkanları qazanmış olurlar. Belə ki, hazırda ölkəmizin aqrar sənayesində mineral gübrələr, kimyəvi pestisid və maddələr, eləcə də kənd təsərrüfatı məqsədli xammal və ehtiyatların böyük bir qismi xaricdən idxal edilir ki, bu da idxalda tez-tez qiymət dəyişiklikləri fonunda məhsulun bahalaşmasına səbəb olur. Bu baxımdan regionda mineral gübrə və kimyəvi aqrar mallar üzrə lider ölkələrdən biri sayılan Belarusun Qarabağ və Şərqi-Zəngəzurda böyük bir xammal təchizatı kompleksi qurması Azərbaycan aqrar hədəflərinin reallaşmasına mühüm töhfə olacaq.

### Cənubi Qafqazda yeni "ağıllı sənaye" şəhərcikləri...

Belarus MDB və dünya birliyində kənd təsərrüfatı texnikasının istehsalı, maşın və avadanlıqların tədarükü sahəsində də aparıcı ölkələrdən biridir, burada ağır sənaye texnikalarının istehsalında müasir sənaye zənciri formalaşıb. Azad ərazilərdə inkişaf etdirilən aqrar-sənaye layihələrinin, ələlxüsus da Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonasında fəaliyyət göstərən yerli və xarici şirkətlər üçün tələb olunan aqrar sənaye texnologiyalarının təminatında Belarusun imkanlarından faydalanmaq daha əlverişlidir. Bu ölkənin tanınmış zavodlarında istehsal edilən MT3 və MAZ-ların Qarabağda tədarükünün təşkili və "ağıllı sənaye" texnologiyaları əsasında təkmilləşdirilmiş versiyasının yaradılması təkcə bu bölgənin deyil, ümumilikdə, Cənubi Qafqaz regionunda yeni tipli sənaye sektorunun formalaşmasına imkan verəcək.

Azad olunmuş ərazilərdə heyvandarlığın inkişafı ilə bağlı da iri layihələr icra olunur, İsrail, Türkiyə Azərbaycanla birgə emal müəssisələrini qurmaqla, bu torpaqlarda heyvandarlığın inkişafı üçün imkanlar isə daha böyükdür. Ona görə də cins malqara üzrə MDB-nin lideri olan Belarusun heyvadarlıq müəssisələri yaratması hər iki ölkə üçün xüsusi önəm daşıyır. Bu, həmin bölgədə və Azərbaycanda süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün də xüsusi əhəmiyyət kəsb edir və Azərbaycanın ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə öz töhfəsini verə bilər. Eləcə də Belarus təcrübəsi üzrə Qarabağda aqroşəhərciklərin salınması böyük bir iş yerləri, məşğulluq proqramlarının gerçəkləşməsi deməkdir.

*ELBRUS CƏFƏLİ*

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır

*Yeganə BAYRAMOVA*

# Rasional və praqmatik siyasət!

## Dünya ölkələri Azərbaycanla əməkdaşlıqda maraqlıdır...

Ölkə başçısının yürütdüyü mükəmməl və praqmatik xarici siyasət Azərbaycanı dünya miqyasında etibarlı tərəfdaş kimi tanıdıb. Bu, artıq heç kimin inkar edə bilməyəcəyi tarixi faktdır. Bu gün Azərbaycan dünya birliyinin bütün sahələrində, xüsusilə də enerji sahəsində aparıcı tərəfdaşa çevrilib. Sözsüz ki, bu sadaladığımız faktların arxasında ölkə rəhbərliyinin gərgin əməyi, əzmkar və müstəqil xarici siyasət kursu dayanır. Ona görə də bu gün Azərbaycanın iştirakı olmadan nəinki regionda, hətta dünya miqyasında heç bir strateji layihənin reallaşması mümkün deyil. Çünki hazırda Azərbaycan dünya siyasətinin və iqtisadiyyatının əsas faktorlarından birinə çevrilib.

Sözsüz ki, sadaladığımız bu uğurlar dünya birliyi ilə inteqrasiya istiqamətində görülən düzgün işlərin nəticəsində mümkün olub. Bütün beynəlxalq təşkilatlar və dünyanın aparıcı dövlətləri ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olan ölkəmiz, bunun üçün konkret addımlar atır. Bu gün Azərbaycan dünya birliyinə inteqrasiyanın, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi məqsədilə bir çox nüfuzlu beynəlxalq təşkilatlar, habelə dünya dövlətləri ilə sıx əməkdaşlıq edir.

**Azərbaycan fəal xarici siyasət yürüdür**

Mövzunu "Yeni Azərbaycan"a şərh edən politoloq Zaur Məmmədov bildirib ki, bu gün dünyada gedən inteqrasiya prosesləri bütün ölkələri əhatə edir. Onun sözlərinə görə, inteqrasiya suveren dövlətlərin daxili və xarici



siyasətinə korrektivlər edən, xalqların taleyində dönüş nöqtələrinə təkan verən fenomenə, dünya inkişafının başlıca meyillərinə çevrilib: "Beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinə böyük önəm verən dövlətimiz Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaradıb, bu nüfuzlu qurumlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsi üçün fəal xarici siyasət həyata keçirilib. Böyük əhəmiyyətə malik geosiyasi və geostrateji məkanda yerləşən Azərbaycan 1993-cü ildən etibarən bu mövqedən həm özünün, həm də tərəfdaşlarının yetərincə faydalanması üçün əlverişli imkanlar yaradıb, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində önəmli addımlar atıb. Azərbaycan regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən, beynəlxalq arenada əməkdaşlığı genişləndirərək və dərinləşdirərək müstəqil dövlət kimi çoxsaylı beynəlxalq təşkilata üzv olub".

**Geosiyasi reallıqların düzgün qiymətləndirilməsi**

Z.Məmmədovun sözlərinə görə, dünyanın bir sıra ölkələrində qanlı toqquşmaların, ciddi böhranların hökm sürdüyü bir vaxtda Azərbaycanda sabitlik hökm sürür: "Ölkə başçısının region və dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr qurması bu baxımdan ciddi əhəmiyyət kəsb edir. Prezidentin geosiyasi və qlobal reallıqları yaxından izləməsi və düzgün qiymətləndirməsi Azərbaycanı təhlükəsiz, inkişaf və tərəqqi yolunu tutmuş ölkəyə çevirib. Bu, Azərbaycanın dünya çapında qəbul edilmiş ciddi dövlət statusu qazanmasına töhfə verir".

**Azərbaycanla əməkdaşlıqdan məmnundurlar...**

Politoloq qeyd edib ki, İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri daha da möhkəmlənib: "Bu diplomatik reallıqlar fonunda respublikamızın Avropaya və dünya birliyinə inteqrasiyası xeyli sürətlənib. 44 günlük müharibənin uğurlu nəticələri göstərdi ki, Azərbaycan dünya dövlətləri arasında öz sözünü deyir, daxili və xarici siyasətdə davamlı uğur əldə edir. Dövlət başçımızın məntiqli xarici və daxili siyasəti, uğurlu diplomatik fəaliyyəti belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə hərtərəfli inkişaf tempini saxlayacaq, ölkəmizin həm regional, həm də qlobal səviyyədə mövqelərinin möhkəmlənməsi davam etdiriləcək.

Məhz ona görə də bütün dünya ölkələri Azərbaycanın regionda yaratmış olduğu yeni reallıqlara razılaşıb. Bu, Prezident İlham Əliyevin yürütdüyü siyasətin beynəlxalq əməkdaşlıq və qlobal həmrəyliyə istiqamətdirilməsi ilə birbaşa bağlıdır. Prezident milli maraqlarımıza söykənən müstəqil, ağıllı və düşünülmüş siyasət yürütməklə Azərbaycanı dünyanın ən nüfuzlu ölkələrindən birinə çevirib. Təsadüfi deyil ki, İlham Əliyev dünyada ən çox etimad göstərilən liderlərdəndir. Ona görə də dünyanın bir sıra aparıcı dövlətləri bu gün Azərbaycanla əməkdaşlıq etməkdən məmnundurlar və mövcud əlaqələrin daha da dərinləşdirilməsi, o cümlədən yeni əməkdaşlıq platformalarının axtarışında olduqlarını qeyd edirlər".

---

# Rəqəmsal sektorun gənc biznes fəalları

## Azərbaycanlı startapçılar beynəlxalq rəqabətdə imkanlarını sınamaq iqtidarındadır

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir trendlərindən biri olan startap ekosistemi artıq biznes ideyalarının mükəmməl aləti kimi özünü doğrultmaqdadır. Bir neçə ildir ki, fəaliyyət göstərən "Startap Azərbaycan" platforması startaplar, investorlar, maliyyə fondları, yeni rəqəmsal alətlərə dəstək verməklə gənc biznes komandasının təşviqinə və böyüməsinə səbəb olub. Bu motivasiyalar sayəsində qlobal süni intellekt ailəsinə daxil olan Azərbaycan startapları təkcə son bir ildə 2,2 milyon dollar həcmində investisiya cəlb etməyə nail olub. Həmin sərmayələr hesabına startap ideyaları üzrə inkubasiya proqramlarının sayı da genişlənməkdədir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov Azərbaycan İnnovasiya Mərkəzinin açılış mərasimində bildirib ki, 2023-2024-cü illərdə nazirlik yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəklədiyi 20 inkubasiya və akselerasiya proqramına 600-dən çox komanda müraciət edib, 165 minimal işlək məhsulu olan startap ərsəyə gəlib. Bu, qısa bir dövr üçün çox ümidverici göstəricidir və qarşıdakı illərdə hədəf aktiv innovativ layihələrin sayının 500-ə çatdırılmasıdır. Mövcud dinamika və ideya ötürcülüyü həmin rəqəmlərə daha tez çatmağın mümkün olacağına ümid yaradır.

### 10 illik vergi güzəştləri, iqtisadi stimullar

Ölkədə yaradılmış əlverişli investisiya mühiti, vergi stimulları və digər təşviqlər startapların inkişafında müstəsna rol oynamaqdadır. Vergi Məcəlləsinin 102.1.31.-ci maddəsinə əsasən, "Startap" şəhadətnaməsi olan fiziki şəxs şəhadətnaməni aldığı tarixdən 3 il müddətinə və həmin startap şəhadətnaməsi üzrə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri vergidən azaddır. Həmçinin, startaplar üzrə texnoloji avadanlıqlar və maddi-texniki güzəştlər və təşviqlər də bu sahədə motivasiyaedici mühit yaradıb.

Startapların nüfuz etdiyi yüksək texnologiyalar parklarında da xüsusi aktivlik nəzərə çarpmaqdadır. Texnopark rezidentlərinin sayının 96-ya yüksəlməsinə səbəb olub. Qeyd edək ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə və 2023-cü il yanvarın 1-dən qüvvəyə minən yeni qaydalara əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkında kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə mənfəət, gəlir, əmlak vergiləri, dividendlər, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına münasibətdə ƏDV-dən azad edilib. Vergi güzəştləri onların həm texnopark, həm də texnoparkdan kənar fəaliyyətinə şamil edilir.

Nəticədə bu güzəşt və motivasiyalar yüksək texnologiyalar və innovasiyalar sektorunda çalışan gənc biznes icmasının sistem inteqrasiyası, proqram təminatı, süni intellekt məhsulları üzrə inkişafında əlverişli mühit yaradır.

### "Startap şəhadətnaməsi" biznes ideyalarını motivasiya edir

İndiyədək 167 sahibkarlıq subyektinə "Startap şəhadətnaməsi" verilib ki, bu da qeyd edilən sahədə biznes ideyalarının sayının artmasına dəlalət edir. Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Məsələn, "Technovate-Sabah Mələk İnvestorlar Klubu"na üzv olan statapçılar investisiyalarda daha fəaldır.

Yüksək texnologiyalar sektorunda investisiya risklərinin minimallaşdırılması startapların maliyyə resurslarına çıxış imkanlarını da genişləndirib. Son ildə müxtəlif İT fondlarının bazara daxil olması, xüsusilə də "Caucasus Ventures" kimi innovativ ideyalara dəstək verən vençur kapital fondunun təsis edilməsi bu sahədə ideya rəqabətini genişləndirməkdədir. Təkcə, həmin fond 19 startapa 1,5 milyon dollar dəyərində investisiya yönəldib.

Təşviqedici siyasət sayəsində Azərbaycanın yüksək texnologiyalar parklarına daxil olan qabaqcıl investorların sayı da artır. Onlardan biri - Pirallahı Yüksək Texnologiyalar Parkının rezidenti "Adviad" MMC Avropa Yenidənqurma və İnkişaf Bankının "Star Venture Proqramı"nın qaliblərindəndir və 5 ölkədə 100-dən çox müştəriyə xidmət göstərir. Eləcə də "Technofusion LLC" süni intellekt və texnologiyalar sahəsində rəqəmsal dünyada bizneslərlə rəqabət aparmağa iddialı şirkətlərdəndir.

### Dünya Startap Yarışmasında Azərbaycan brendi




Bu motivasiyalar sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında startap, süni intellekt və biznes ideyaları dünya ölkələrinin startapları ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qazanmağa nail olub. Ölkəmizi təmsil edən "SkyBee" komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında "Aqrar sektorda ən yaxşı startap" nominasiyasının qalibi olub. Azərbaycanlı startapçılar artıq okeanın o tayında da rəqabət üçün imkanlarını sınamağa çalışır. Yaxın vaxtlarda ABŞ-da keçiriləcək Ümumdünya Startap Yarışmasına iştirak hüququ qazanmaq bu imkanları nümayiş etdirmək baxımından yaxşı fürsət hesab edilə bilər.

*E.CƏFƏRLİ*

# BRICS-in yeni siyasi gündəmi

## Kazan sammiti qlobal iqtisadi-siyasi həyata nə vəd edir?

## Təşkilat qlobal böhranların aradan qaldırılması üçün səyləri birləşdirir

**Yarandığı 18 ildə mühüm inkişaf yolu keçmiş BRICS hazırda dünyanın yeni "iqtisadi gündəmi" adlandırılmaqdadır. 2006-cı ilin iyununda Braziliya, Rusiya, Hindistan, Çin iqtisadiyyat nazirlərinin iştirakı ilə Sankt-Peterburq İqtisadi Forumu çərçivəsində yaradılan qurum üzvləri arasındakı ikitərəfli münasibətlər siyasi kurslara qarışmamaq şərti ilə, bərabərlik və qarşılıqlı fayda əsasında inkişaf etdirilir. Bu isə təşkilatın qısa zamanda xüsusilə irəliyə doğru addımlamasına şərait yaradıb. İlk yaranan dövrlərdə təşkilatın adı BRİC olsa da, 2011-ci ildə bu sıraya Cənubi Afrika Respublikasının da qoşulması təşkilatın adında da yeniliyə yol açdı.**

### Kazan sammitindən gözləntilər...

Vurğulandığı kimi təşkilat son dövrlərdə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub - tərəfdaşlığın məqsədi "ardıcıl, fəal, praqmatik, açıq və şəffaf dialoq, əməkdaşlıq" kriteriyaları üzərində formalaşdırılıb. Yaxın perspektiv üçün gözlənti isə tərəfdaşlıq nəticəsində üzv ölkələrin dünya miqyasında iqtisadi və siyasi mövqelərini möhkəmləndirməsidir. İldə bir dəfə - reqlamentə uyğun olaraq keçirilən sammitdə isə ətraf mühit problemləri, yoxsulluğun aradan qaldırılması, sosial inkişaf, maliyyə institutlarının əlaqələndirilməsi və bu kimi siyasi-iqtisadi həyatın bütün müxtəlif aspektləri müzakirə olunur. Paralel olaraq təşkilatın genişlənməsi də prioritetlər arasındadır.

Yeri gəlmişkən, oktyabrın sonunda Kazanda keçiriləcək BRICS sammitində "BRICS tərəfdaşının yeni statusu" adlı hesabat təqdim olunacaq. Bunu Rusiya xarici işlər nazirinin müavini, Rusiyanın BRICS-də nümayəndəsi Sergey Ryabkov deyib. Onun sözlərinə görə, indi qarşıda duran vəzifə artıq qəbul edilmiş üzvləri alyansa inteqrasiya etməkdir. "Ancaq BRICS-in qapıları açıqdır", -deyə o əlavə edib. Ryabkov onu da qeyd edib ki, BRICS-in sıralarının genişlənməsi əsas məqsəd deyil. Müraciət edən ölkələr üçün heç bir xüsusi tələb olmayacaq, lakin müəyyən meyarlar olacaq. BRICS-ə qoşulmaq üçün ölkələr "suveren kurs tutmalı", "beynəlxalq və regional məsələlərdə mühüm rol oynamalı" və assosiasiya üzvlərinə qarşı sanksiyalara qoşulmamalıdır.

S.Ryabkovun qeyd etdiyi kimi, 30-dan çox lider Kazanda oktyabr sammitində iştirakını təsdiqləyib.

### BRICS-in inkişaf strategiyası...

Son dövrlərdə BRICS-ə marağın artması da sirr deyil - BRICS ölkələri birlikdə dünya ÜDM-nin demək olar ki, dörddə birini əks etdirir və dünya əhalisinin təxminən 45 faizini əhatə edən genişmiqyaslı qlobal bazar statusunu daşıyır. Həmçinin maliyyə resursları BRICS ölkələrində təxminən 25 trilyonu keçir. Təşkilatın iqtisadi konsepsiyasına əsasən, BRICS ölkələrində prioritetlər kənd təsərrüfatı, ticarət, investisiya və mineral xammala verilir. Qurumun 2025-ci ilə qədərki İqtisadi Tərəfdaşlıq Strategiyası da hazırlanıb - bu strategiyanın üç əsas bloku var:

-ticarət;

-investisiyalar və maliyyə;

-rəqəmsal iqtisadiyyat və davamlı inkişaf.

Formatın son dövrlərdə önə çəkdikləri prioritet vəzifələrindən biri koronavirus pandemiyası kimi bütün növ iqtisadi və qlobal böhranların aradan qaldırılması üçün səylərin birləşdirilməsidir. Ölkələr həmçinin ticarət məhdudiyyətlərinə qarşı çıxmaq və Ümumdünya Ticarət Təşkilatında islahatlar aparmaq üçün fəal iş aparırlar. Paralel olaraq BRICS-i fərqləndirən cəhətlərdən biri də iqtisadi artımı sürətləndirmək və dolların iqtisadiyyatlara təsirini zəiflətmək üçün milli valyutalarda hesablaşmaları inkişaf etdirmək tərəfdarı olmasıdır.

BRICS üzvü ölkələrin beynəlxalq maliyyə təşkilatı sayılan Yeni İnkişaf Bankı hazırda qurum ölkələrində təxminən 8 milyard dollar dəyərində bərpa olunan enerji və infrastruktur layihələrini təsdiqləyib. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, qlobal maliyyə böhranından sonra qlobal iqtisadiyyat üçün əsas dəstək sistemi kimi çıxış edən aşağı gəlirli ölkələrlə məhz BRICS ticarəti və investisiyaları təmsil olunub.




### Bakı üzvlük üçün müraciət edib

Vurğulandığı kimi, Kazan sammitində BRICS-in sıralarının genişlənməsi məsələsinin də bu və ya digər şəkildə müzakirə predmeti olması gözlənilir - bu isə, təşkilatın gələcək perspektivini daha da gücləndirir. Xatırladaq ki, 2023-cü ilin avqust ayına qədər 40 ölkə BRICS-ə qoşulmaqda maraqlı olduğunu bildirmişdi. Onlardan 20-yə yaxını rəsmi olaraq qəbul üçün müraciət belə etmişdi. Üzvlük üçün rəsmi müraciət edən ölkələr sırasında Əlcəzair, Banqladeş, Belarus, Venesuela və Pakistan da var. Qrupun 2024-cü ilin sonuna kimi Şərqi Afrika ölkələri ilə qarşılıqlı əlaqələrinin daha da gücləndirəcəyi proqnozlaşdırılır - bunda əsas rol Misir, Efiopiya, İran və BƏƏ-nin birliyə daxil olması ilə bağlıdır. Bu ilin yanvarında qəbul edilən namizədlər arasında təmsilçilikdən imtina edən yeganə ölkə Argentina oldu.

Qeyd edək ki, Azərbaycan da BRICS-ə daxil olmaq üçün rəsmi müraciət edib. Bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını dəstəkləyib.

Paralel olaraq Azərbaycanın bu istəyi Rusiya tərəfindən də dəstəklənib. Bu ilin avqustunda Rusiya Federasiyası xarici işlər nazirinin müavini Sergey Ryabkov jurnalistlərə bildirmişdi ki, Moskva Bakının BRICS-ə qoşulmaqla bağlı müraciətini dəstəkləyir. "Biz hesab edirik ki, bu, çox güclü namizəddir və o, BRICS-ə qoşulmaqla, şübhəsiz ki, özü ilə BRICS-ə xas olan həm əlavə dinamika, həm də unikal təcrübə, o cümlədən bir çox gündəmlər üzrə konstruktiv iş təcrübəsi gətirəcək" - deyə Rusiya XİN-in rəsmisi vurğulamışdı.

BRICS-in sürətlə inkişaf edən ölkələr qrupu olmasını göz önünə gətirsək, Azərbaycanın qurumda təmsilçiliyi təbii qarşılanır. Zəngin resurslara malik ölkəmizdə iqtisadi inkişaf üçün bütün şərtlər təmin olunub. Azərbaycan yüksək inkişaf templəri ilə irəliləyərək özünün iqtisadi və maliyyə imkanlarını genişləndirir. Paralel olaraq Çin, Rusiya kimi nəhəng dövlətlərlə yaxın tərəfdaş əlaqələri Azərbaycana BRICS platformasında da yeni imkanlar qazandıra bilər.

### Azərbaycanın qlobal təşəbbüsləri...

Azərbaycanın BRICS-in inkişafına verə biləcəyi mühüm töhfələrdən biri də ölkəmizin qlobal təşəbbüslərdəki aktivliyidir - təxminən bir aydan sonra ölkəmizdə keçiriləcək COP29 bunun bariz misalıdır. Təsadüfi deyil ki, BRICS sammitlərində qaldırılan ən mühüm məsələlərdən biri məhz iqlim dəyişikliyi problemidir. Ölkələr qlobal istiləşmə ilə mübarizə fonunda öz iqtisadi və enerji maraqlarını balanslaşdırmağa çalışırlar. Burada isə Azərbaycanın problemin həlli istiqamətində müzakirə yaratması, bu istiqamətdə beynəlxalq platforma kimi çıxış etməsi mühüm üstünlüklər yaradır. Perspektivdə "yaşıl enerji" siyasətini şaxələndirməyi planlaşdıran Azərbaycanın prioritetləri BRICS ilə üst-üstə düşür.

Ümumiyyətlə, BRICS daha balanslı və çoxtərəfli sazişlər prinsipinə əsaslanan çoxqütblü dünya ideologiyasını təbliğ etməkdədir - xüsusilə, bu təşkilatın hazırda Afrika gündəliyinin həyata keçirilməsi üçün əsas hərəkətverici qüvvələrdən birinə çevrilməsi də diqqəti cəlb edir. Azərbaycanın Afrikadakı bəzi ölkələrin istismar edilməsinin qarşısının alınması istiqamətində apardığı siyasət müəyyən prizmalarına görə təşkilatın siyasi krusu ilə uzlaşır. Belə ki, BRICS müstəqil siyasi-iqtisadi əlaqələrin tərəfdarı kimi çıxış edir - beləliklə, qurumun Afrika gündəliyi həm də ordakı ölkələrin siyasi-iqtisadi azadlığının əsas təminatçılarından biri kimi çıxış etməyə imkan yaradır.

***P.İSMAYILOV***

# AŞPA-ya daha bir etiraz...

## Azərbaycan nümayəndə heyətinin mandatının bərpa olunmaması qurumun konstruktiv dialoq platforması kimi fəaliyyətinə, inklüzivliyinə və nüfuzuna xələl gətirir

**Bir sıra Qərb təsisatları, o cümlədən də Avropa Şurası Parlament Assambleyası (AŞPA) özlərinin təməl prinsiplərindən geridönüş edərək getdikcə daha çox qərəzçiliyə yol verir və ikili standartlardan çıxış edirlər. Bunu Azərbaycana münasibətdə aydın şəkildə müşahidə etmək mümkündür. İndiyədək qurumda ölkəmizlə bağlı hazırlanan hesabatlar və qəbul olunan bir sıra qərarlar obyektivlikdən çox-çox uzaqdır və sırf selektiv yanaşmalara əsaslanır. Bu baxımdan AŞPA-nın payız sessiyası da istisnalıq təşkil etmir. AŞPA-nın payız sessiyası çərçivəsində cari debatlar keçirilib. Debatlarda Azərbaycanla bağlı məsələlərdən danışılıb. Halbuki prosedur qaydalarına görə Azərbaycan nümayəndə heyətinin iştirakı olmadan ölkəmizlə bağlı belə debatların aparılması yolverilməzdir. Buna görə də sessiyada iştirak edən bəzi avropalı parlamentarilər Azərbaycan nümayəndə heyətinin iştirakı olmadan keçirilən bu debatların məntiqə uyğun olmadığını bildiriblər.**

### Növbəti etiraz serbiyalı deputatlardan gəlib

Qəzetimizin ötən saylarında Gürcüstan parlamentarilərinin AŞPA-da Azərbaycan nümayəndə heyətinin iştirakı olmadan ölkəmizlə bağlı depatların aparılmasına etirazlarını bildirdikləri barədə yazı dərc etmişdik. Qurumda məlum debatlara həmçinin serbiyalı deputatlar da etirazlarını ifadə ediblər. "Azərbaycanlı həmkarlarımız olmadan bu ölkədən danışmaq o qədər də məntiqli deyil. Prinsipcə, biz hər hansı üzv dövlətin Avropa Şurası Parlament Assambleyasının və ya hər hansı digər təşkilatın işindən kənarda qalmasının əleyhinəyik. Avropa Şurası Parlament Assambleyası bərabərlik və inklüzivlik əsasında dialoq platforması rolunu oynamalı, bu ideyanın təbliğinə üstünlük verməlidir", - deyə serbiyalı deputatlar bildiriblər.

Aydınlıq üçün xatırladaq ki, cari ilin yanvar ayından etibarən Azərbaycanla AŞPA arasında dialoq pozulub ki, bunun da bütün məsuliyyəti qarşı tərəfin üzərinə düşür. Qarabağı könüllü şəkildə tərk edən erməni əhalinin sözün əsl mənasında qəyyumuna çevrilən, Bakıda cəzalarını gözləyən separatçıların müdafiərinə qalxan AŞPA cari il yanvarın 24-də keçirilən plenar iclasında Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin substantiv əsaslarla qəbul edilməməsinə çağıran qətnamənin lehinə səs verib.

Həmişə müstəqillik və suverenlik prinsiplərindən çıxış edən Aərbaycanın buna reaksiyası kəskin oldu. Belə ki, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Azərbaycanın nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

### Nümayəndə heyətimizin AŞPA-da iştirakının bərpası zəruridir

Serbiyalı deputatların qənaətinə görə bu debatlar dialoqa kömək etməyəcək. Azərbaycan nümayəndə heyətinin iştirakı olmadan belə bir təşəbbüslə çətin ki, qarşıya qoyulan məqsədlərə nail olunsun. Bu, konstruktiv dialoqu təşviq etmək əvəzinə, gərginliyi gücləndirmək və əldə edilmiş nəticələri sarsıtmaq riski daşıyır. Serbiyalı deputatlar Azərbaycan nümayəndə heyətinin AŞPA-ya qayıtmasının vacibliyini vurğulayıblar.

Onlar, həmçinin bildiriblər ki, yanvar ayında Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin etimadnaməsini təsdiq etməmək qərarı lüzumsuz idi və əks nəticə verdi. Vurğulanıb ki, bu qərar AŞPA-nın konstruktiv dialoq platforması kimi roluna xələl gətirir. Avropada və dünyada mövcud vəziyyəti nəzərə alaraq, dialoqa qayıdış və Azərbaycan nümayəndə heyətinin AŞPA-da iştirakının bərpası zəruridir.



Serbiyalı deputatlar "Prinsipcə, biz hər hansı üzv dövlətin Avropa Şurası Parlament Assambleyasının və ya hər hansı digər təşkilatın işindən kənarda qalmasının əleyhinəyik" dedikdə məhz bəhs etdiyimiz hekayəyə işarə ediblər. Azərbaycan AŞPA ilə münasibətlərin normal məcraya dönməsində maraqlıdır. Yetər ki, qarşı tərəf özünün qərəzli mövqeyindən geri çəkilsin və nümayəndə heyətimizin qurumda mandatının bərpasını təmin etsin.

### Azərbaycan beynəlxalq nizamın əsas aktorudur

Serbiyalı deputatlar həmçinin Azərbaycanın artan beynəlxalq nüfuzuna da xüsusi diqqət çəkiblər. Vurğulanıb ki, bu gün Azərbaycan hüquqa, sülhə və təhlükəsizliyə əsaslanan beynəlxalq nizamın əsas aktorudur. Onun mədəniyyəti Avropanın mədəni mozaikasının ayrılmaz tərkib hissəsini təşkil edir və onun təbii sərvətləri qitənin rifahı üçün həyati əhəmiyyət daşıyır.

"Yanvar ayında vətəndaşların birbaşa təmsil olunduğu Avropa Şurası qurumunda Azərbaycan nümayəndə heyətinə səlahiyyətlərin verilməsindən imtina edilməsi səhv idi. Əksinə, Avropa qitəsinin və bütün dünyanın böyük problemlərlə üz-üzə qaldığı bir vaxtda Avropa Şurasının daha sıx birliyə və mümkün olan ən böyük demokratik legitimliyə ehtiyacı var. Əminik ki, Azərbaycan nümayəndə heyətinin bizim işimizdə hərtərəfli iştirakı bu mühüm əhali arasında Avropa dəyərlərinin və demokratik prosedurların qütbləşməsinə təsir göstərəcək", - deyən serbiyalı deputatlar Azərbaycan nümayəndə heyətinin AŞPA-ya qayıtmasının zəruriliyini bir daha qeyd ediblər.

***Mübariz FEYİZLİ***

# Azərbaycan musiqisinin Qərbdəki siması- Xədicə Zeynalova



"Vətəni sevmək azdır, onu qorumaq gərək,
"Vətənim"-demək azdır, Vətənin olmaq gərək"

- deyib mərhum şairimiz Cabir Novruz. Əsl vətəndaş olduğu yerdən, zamandan asılı olmayaraq hər daim Vətənini adında, əməlində, yaddaşında və ruhunda yaşadan, yaşatdırandır.

Həyatını və yaradıcılığını Azərbaycan adlı məmləkətin qədim, zəngin mədəniyyətinin, incəsənətinin təbliğinə həsr edən, Vətənin sərhədlərindən kənarda Vətən olan həmyerlilərimizdən biri də dünya şöhrətli bəstəkar, musiqişünas alim Xədicə Zeynalovadır.

Uzun illərdir Almaniyada yaşayan və fəaliyyət göstərən bəstəkar, sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas, Almaniya "Bridge of Sound" orkestrinin bədii rəhbəri, eyniadlı cəmiyyətin yaradıcısı və sədri Xədicə Zeynalova Almaniyada 2024-cü ilin ən yaxşı bəstəkarı adına layiq görülüb. Almaniyada "Harmony of sound" adlı Beynəlxalq Musiqi Festivalının yaradıcısı və bədii rəhbəri olan həmvətənimiz Detmold Konservatoriyasının və Paderborn Universitetinin dosenti, Almaniya, Hollandiya, İngiltərə, Azərbaycan və Yaponiyada çap edilən sayca 40-dan çox elmi kitab, əsər və dərsliklərin müəllifidir.

Haqqında danışdığımız Xədicə xanım Zeynalova Sumqayıt şəhərində ziyalı ailəsində dünyaya gəlib. Səkkizinci sinifdək 27 nömrəli məktəbdə oxuyub. 1990-1994-cü illərdə Sumqayıt Musiqi Kollecində musiqi nəzəriyyəsi üzrə, 1994-2000-ci illərdə Bakı Musiqi Akademiyasında bəstəkarlıq və musiqişünaslıq üzrə bakalavr və magistratura pilləsini fərqlənmə diplomu ilə bitirib.

Ölkəmizdə və ölkədən kənarda saysız-hesabsız yaradıcılıq uğurları qazanan, yorulmadan və bitməz-tükənməz enerji ilə, eşqlə Azərbaycan musiqisini bütün dünyada tanıdan, təbliğ edən Xədicə xanım 2000-2005-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dosent kimi pedaqoji fəaliyyətlə məşğul olaraq Azərbaycan musiqi sənətinə neçə-neçə peşəkar musiqiçi bəxş edib.

2005-2006-cı illərdə Almaniyanın məşhur Detmold Konservatoriyasında bəstəkarlıq üzrə təhsilini davam etdirib. 2006-2012-ci ildə Almaniyanın Paderborn Universitetində doktorantura ilk azərbaycanlı bəstəkar və musiqişünas olaraq "Azərbaycanın 20-ci əsr musiqi mədəniyyəti və Qərb musiqisinin təmayülləri" mövzusunda dissertasiyasını böyük uğurla və fərqlənmə ilə müdafiə edib. Bu dissertasiya Almaniyada Azərbaycan musiqi mədəniyyəti haqqında yazılan 400 səhifəlik ilk elmi iş və kitabdır.

1999-cu ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan X.Zeynalovanın mükafat almış bir çox əsərləri Almaniyada, Avstriyada, İngiltərədə, Macarıstanda, Omanda, Türkiyədə, İtaliyada, Fransada, İsveçrədə, Şimali Kiprdə, Gürcüstanda, Kanadada, Birləşmiş Ştatlarda, Yunanıstanda və digər ölkələrdə müasir musiqi konsertlərində və Beynəlxalq Musiqi Festivallarında uğurla ifa edilib. Qeyd etmək lazımdır ki, bəstəkarın bir çox əsərləri Almaniyanın müxtəlif şəhərlərində uğurla ifa olunaraq MDR Radio, WDR Radio, Deutschlandfunk, Radio Bremen, SWR Radio, Cosmo Radio, RBB Berlin Radiolarında yayımlanıb.

2000-ci ildə X.Zeynalovanın "Simfonik Poema" əsəri Azərbaycan Respublikasında bəstəkarlıq üzrə keçirilən "İlin ən yaxşı əsəri" adlı müsabiqədə Simfonik əsər nominasiyasında birinci yerə layiq görülüb. Mükafatlandırılma zamanı Ümummilli Lider Heydər Əliyev cənabları şəxsən bəstəkarı təbrik edərək diploma təltif edib.

İlk azərbaycanlı bəstəkar və musiqişünas olaraq Xədicə Zeynalova Almaniyada nüfuzlu Friedrich-Ebert-Stiftung Doktor Təqaüdü mükafatı, DAAD Təqaüdü mükafatı, Almaniya Mədəniyyət Nazirliyinin Təqaüdü mükafatı, Almaniya Şimali Reyn Westfaliya Mədəniyyət Nazirliyinin Təqaüdü mükafatı, GVL Fondunun Təqaüdü mükafatı, GEMA Fondunun və Musikfonds Fondunun Təqaüdü mükafatı laureatıdır.

X.Zeynalova 2020-ci il Azərbaycan Respublikasının Diaspora iş üzrə Dövlət Komitəsinin "Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və 2020-ci ildə diaspor quruculuğu işində göstərdiyi xüsusi fəallığa görə" Təşəkkürnamə, 2021-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin "Nizaminin 880 illiyi" medalı ilə, həmin il Nizami və Yunus Əmrə İlində TÜRKSOY-un təşkil etdiyi "Türk Dünyasının Şah əsərləri" layihəsində bəstəkar kimi "Təşəkkürnamə" və 2022-ci ildə Azərbaycan Mədəniyyətinin beşiyi Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında "Azərbaycan Respublikasının Diaspor Fəaliyyətində xidmətə görə" medalı ilə təltif edilib.

Həmvətənimiz 2005-ci ildən- Almaniyada yaşadığı dövrdən bəri Azərbaycanın musiqi sənətini tanıtmaq və təbliğ etmək məqsədilə müəyyən konsertlərin və festivalların təşkil olunmasında fəal iştirak etməkdədir. O, Almaniyada yaratdığı "Bridge of Sound" ("Səsin körpüsü") adlı orkestri ilə bir çox uğurlu konsert və layihələri müvəffəqiyyətlə təşkil edərək Azərbaycanın zəngin musiqi mədəniyyətini layiqincə təmsil və təbliğ edir.

2017-ci ildə Almaniyanın Bonn şəhərində keçirilən "Beethovenfest 2017" Beynəlxalq musiqi festivalında X.Zeynalovanın dünya şöhrətli bəstəkar Bethovenin xatirəsinə həsr etdiyi solo fortepiano üçün yazılmış "In Memoriam Ludwig van Beethoven" əsərinin primyerası baş tutub.

Bəstəkar 2021-ci il noyabr ayında "Zəfərə doğru"- böyük zəfərimizə həsr edilmiş "Harmony of Sound" adlı ilk Alman-Azərbaycan beynəlxalq Musiqi Festivalı təşkil edib. "Odlar diyarından" adı ilə Azərbaycanın zəngin musiqi mədəniyyətinə həsr edilmiş Beynəlxalq Musiqi Festivalı Almaniyada 3 gün ərzində 3 müxtəlif şəhərdə böyük uğurla baş tutub. Festivalda iştirak edən xarici qonaqlara, Almaniyada yaşayan azərbaycanlı həmvətənlərimizə, Diaspora nümayəndələrinə, Alman KİV nümayəndələrinə və tamaşaçılara "Xarı Bülbül" döş nişanı təqdim edilib. Festival Almaniya Mədəniyyət Nazirliyi, Detmold şəhər Bələdiyyəsi və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən maliyyələşdirilib.

2022-ci il noyabrın 8-də Almaniyanın Berlin şəhərində "Zəfərə doğru" Zəfərimizə həsr edilmiş konsert və beynəlxalq tərkibli "Bridge of Sound" orkestrinin ifasında 4 hissəli "Şuşa" sinfoniyasının premyerası keçirilib

Musiqişünas alimin "Odlar diyarından Azərbaycan Almaniya arasında körpülər" adlı ilk CD albomu Azərbaycan Demokratik Respublikasının 100 illik Yubileyinə həsr edilib.

Bəstəkarın Alman- Azərbaycan dostluq münasibətlərinin 200 illiyinə həsr olunmuş "Henrix və Leyla" CD layihəsi isə Amerika Birləşmiş Ştatlarında 2022-ci ilin may ayında CD albomu kimi işıq üzü görüb.

2023-cü ildə bəstəkarın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş kitabları, böyük simfonik orkestr üçün yazdığı "Qarabağ Simfonik Poeması" və solo fortepiano üçün bəstələdiyi "Qarabağ Süitası" əsərləri Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə işıq üzü görüb.

Alman-Azərbaycan diplomatik əlaqələrinin 25 illik yubileyinə həsr olunmuş "Odlar ölkəsi Azərbaycandan lövhələr" adlı konserti, Almaniyanın Aachen şəhərində keçirilən konsertində Şuşaya həsr olunmuş "Lamento" əsərinin ifası, Almaniyanın Oldenburq Universitetində keçirilən, Müasir Musiqiyə və bəstəkarlığa həsr olunmuş Beynəlxalq Bəstəkarlıq kollegiumunda "Odlar ölkəsi Azərbaycandan lövhələr" başlığı ilə "Azərbaycan musiqisinin təqdimatı" mövzusundakı prizentasiyası, 2022-ci ildə "Sülh naminə/Für den Frieden/For Peace", Ümummilli LiderHeydər Əliyevin 100 illiyinə həsr edilmiş "İn Memoriam" konsertləri bəstəkarın növbəti yaradıcılıq uğurları kimi böyük önəm daşıyır.

5 noyabr 2023-cü il tarixində ilk dəfə 10 pianoçu tərəfindən yalnız qadın bəstəkarların yaratdığı 53 əsərin dünya premyerası baş tutub. Bu əsərlərdən biri azərbaycanlı bəstəkarın "Diabelli üçün vals" əsəri olub. İstedadlı bəstəkarımızın kompozisiyası 53 əsər arasında ən yaxşı əsər kimi tanınıb və nəşr mükafatını qazanıb. Bu kompozisiya məşhur Furore-Verlag alman nəşriyyatı tərəfindən Antologiya kitabına salınan 50 əsərdən biridir.

Cari ildə Xədicə Zeynalova Almaniyada ilk azərbaycanlı bəstəkar kimi Almaniya Mədəniyyət Nazirliyinin və Klosterlandschaft OWL-in "İlin bəstəkarı və İncəsənət Xadimi" adlı nominasiyaya layiq görülüb. Bu il ərzində bəstəkarın silsilə müəllif konsertlərinin və müxtəlif əsərlərinin ifası ilə Almaniyanın müxtəlif şəhərlərində silsilə festivalların və tədbirlərin keçirilməsi nəzərdə tutulub.

"Musiqi mənim üçün duyğularımı, düşüncələrimi və fikirlərimi çatdıran zaman hisslərimi səmimi və açıq ifadə edə biləcəyim dildir"-deyən bəstəkar üçün musiqi həm də milli kimliyinin qürurlu ifadəsi, dünyanın harasında olmasından asılı olmayaraq, "azərbaycanlı" adını təbliğidir. Sadaladığımız faktlar bəstəkarın zəngin yaradıcılığının və uğurlarının sadəcə bir hissəsidir. Amma o faktlar belə göstərir ki, Xədicə xanım təkcə Azərbaycan musiqisini deyil, Azərbaycan tarixinin önəmli hadisələrini, bəzən dünyanın göz yummağa çalışdığı gerçəkləri də məhz musiqisi və konsertləri ilə tanıtmağa, təbliğ etməyə israrlıdır. Bu yolda həmvətənimizə daha böyük uğurlar arzu edirik!

*Şahanə MÜŞFİQ*

# 5 aprel görüşünün nəticələri...

## ABŞ kəşfiyyatçılarını Ermənistana yerləşdirir

## İrəvan regionun təhlükəsizliyi üçün yeni təhdidlər yaradır

**ABŞ-ın Ermənistan üzərindən Cənubi Qafqazla bağlı "siyasətinin" detalları özünü göstərməkdədir. Bu ilin aprelində Brüsseldə baş tutan üçtərəfli ABŞ - Aİ - Ermənistan görüşünün Vaşinqton üçün vacib sayılan ən əsas məqamının regiona müdaxilə imkanlarının artırılması olması bəlli idi. ABŞ tərəfi bu görüş nəticəsində ortaya çıxan razılaşmada "hərbi predmetlərin" yer almadığını iddia etsə də, "tərəfdaşlığın" əsas hədəfinin bu olduğu açıq-aydın ortada idi. Bu məsələ son dövrlərdə daha da aktuallaşıb. Xüsusilə, bu ilin avqustunda Ermənistana gətirildiyi bildirilən ABŞ qüvvələri bu sirr üstündəki örtüyü qaldırdı. Ardından Ermənistan ilə ABŞ-ın birgə hərbi təlim keçməsi artıq bütün məsələlərlə bağlı əminlik formalaşdırır...**

### "İkitərəfli gündəlik" nələrdən ibarətdir?

ABŞ-ın Ermənistanı öz maraqlarının poliqonuna çevirməsi faktı artıq sübuta ehtiyac duymur - iki ölkə arasında baş tutan demək olar ki, bütün görüşlər məhz bu mahiyyətə hədəflənib. Yeri gəlmişkən, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və ABŞ Müdafiə Kəşfiyyat İdarəsinin Avropa-Avrasiya Regional Mərkəzinin rəhbəri Patrik Prayor İrəvanda görüşüblər. Görüşdə Ermənistanla ABŞ arasında əməkdaşlıq istiqamətlərini müzakirə ediblər. Tərəflər, xüsusilə, ikitərəfli gündəliyin bir sıra məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Ermənistanın təhlükəsizlik sisteminin modernləşdirilməsi üçün gələcək əməkdaşlığın istiqamətlərini müəyyən ediblər. Bir sıra regional və qlobal təhlükəsizlik məsələlərinə də toxunulub.

Ermənistan mətbuatının yaydığı bu məlumatda diqqət çəkən məqamlardan biri "ikitərəfli gündəliyin bir sıra məsələləri ətrafında fikir mübadiləsi" məsələsidir. Post-müharibə dövründə Ermənistanla "ikitərəfli gündəlik" yaradan Qərbin İrəvan üzərindən oyun oynadığı ortadadır. ABŞ regionun ən zəif iqtisadiyyatına malik, heç bir regional və ya qlobal layihələrdə iştirak etməyən, özünü Şərq-Qərb tranzit xəttindən kənarda saxlamaqla böyük bir logistik kəmərin hissəsinə çevrilə bilməyən, nəhayət hərbi-siyasi durumuna görə ən aşağı yerlərdə sürünən Ermənistanda hansı "ikitərəfli gündəliyi" müzakirə edə bilər? Təsadüfən, bəhs olunan həmin "ikitərəfli gündəlik" hazırda Ermənistanda olan amerikalı hərbi instruktorlar, Pentaqonun nəzarət etdiyi xüsusi hərbiləşdirilmiş strukturlar olmasın? Bütün daşlar yerinə oturur - ABŞ Ermənistanı özünün hərbi plasdarmına çevirməkdə israrlıdır...





### "Milli təhlükəsizlik məsələləsi" adlı kəşfiyyat "planı"...

Aprelin 5-də imzalanan üçtərəfli razılaşmanın görünməyən, amma haqqında danışılan tərəfləri məhz bunlardır - hələ sənəd imzalanmamışdan öncə KİV-lər paktda ABŞ-ın İrəvana strateji müdafiə icmalının aparılması və Ermənistan üçün yeni hərbi doktrinanın hazırlanması üçün ekspert dəstəyi verməsini nəzərdə tutduğunu yazmışdı. Beləliklə, ABŞ-ın məqsədi heç də kənardan "dəstək" vermək deyildi - tam əksinə, nəzarət funksiyasını ələ almaq, bölgə ilə bağlı kəşfiyyat işlərini bütün detallar üzrə özünün aparmasını təmin etmək, "Ermənistanın milli təhlükəsizlik məsələləsi" adı altında maraqlarını regiona yerləşdirmək idi. Yuxarıda qeyd edilən görüş bu detalları da təsdiqləyir - görüşün məhz ABŞ Müdafiə Kəşfiyyat İdarəsinin "rəsmi şəxsi" ilə təşkil olunması Qərbin Cənubi Qafqazda sabitliyə mənfi təsir edəcək proseslərdə fəal iştirak etmək istəyini ortaya qoyur. Beləliklə, üçtərəfli razılaşmada açıqlanan 65 milyon dolların "aysberq"in görünən hissəsi olması da təsdiqlənir - demək ki, qarşıdakı "dövrdə" USAID, Sülh Fondu və bu kimi vasitələrlə Ermənistana pul axınının davam edəcəyi istisna olunmur.

### ABŞ-ın istəyi...

ABŞ-ın belə bir pakt üzərindən irəli sürdüyü maraqlar isə fərqli kontekstlərə köklənib.

- İlk növbədə anti-Rusiya planının "B" variantını həyata keçirməyə çalışır;
- Kremli cənub sərhəddindəki "narahatlıqlardan" xəbərdar edir və bəlkə də diqqəti yayındırır;
- Regionun qeyri-dəqiq müddətə sabit inkişaf yoluna çıxarmağa imkan verməmək üçün əlindən gələni əsirgəməyəcəyini göstərir;
- Son dövrlərdə özünün yüksəliş xəttini daha da genişləndirən, imzalanan Qarabağ bəyannaməsi ilə funksionallığını artırdığını ortaya qoyan TDT-dən qaynaqlanan narahatlıqlar...

### Bölgənin real mənzərəsi...

Son müddəa ən real mənzərədən qaynaqlanır. Planlaşdırılan yeni layihələr Qafqazda sülhün, sabitliyin qorunmasını şərtləndirən amilə çevrilmək imkanından xəbər verir. Çünki iqtisadi əməkdaşlıqlar regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Azərbaycanın son antiterror tədbirləri ilə yaratdığı mənzərə isə regionun gələcəyinin yeni inkişaf strategiyası sayıla bilər. Təbii ki, Cənubi Qafqaza yaxın coğrafiyalar da bu yeni inkişaf strategiyasını yaxından təqib etməli idilər - etdilər də. Son illərdə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya geostrateji məkanının vahid iqtisadi gücə çevrilməsi bütün mənalarda diqqəti cəlb edir - fərqli sahələrdə inkişaf etdirilən tərəfdaşlıqlar, regionun təhlükəsizliyi ilə bağlı danışıqların intensivləşməsi, sülh prosesinə TDT üzvü olan ölkələrin təsir imkanlarının real nəticələri (Qazaxıstanın ikitərəfli görüşə ev sahibliyi etmək təklifi), nəhayət bölgənin hazırlanan yeni iqtisadi-siyasi atlasında əməkdaşlıqların bərabərhüquqlu prinsiplər üzrə müəyyənləşməsi ABŞ üçün düşündürücüdür - Vaşinqtonun antisülh mövqeyi ucbatından bütün bu proseslərdən kənarda qalmış Ermənistanın özünün kəşfiyyat yuvasına çevirməsəbəbləri məhz bu parametrlərə əsaslanır. Bəs verənlər isə Ermənistanın maraqları ilə ziddiyyət təşkil edir - ABŞ öz mənafeyi uğrunda İrəvanı qurban verir...

*P.İSMAYILOV*

# Korsika: Fransa hegemonluğuna etiraz edən ada iflic vəziyyətinə düşüb

Korsika adası iflic vəziyyətindədir. Korsika icması ilə Fransa dövləti arasında Korsika dəniz və hava limanlarının idarə olunması mövzusunda fikir ayrılığı adanın güclü şəxsiyyəti sayılan Jil Simeoninin (Gilles Simeoni) qəzəbinə səbəb olub. Nəticədə Korsika İşçi Birliyinin (STC) rəhbərlik etdiyi ictimai hərəkat iştirakçıları tərəfindən adadakı 4 hava limanı və 6 dəniz limanı blokadaya alınıb.

AZƏRTAC xəbər verir ki, Korsika Ticarət və Sənaye Palatasının (CCI) növbədənkənar ümumi yığıncağı zamanı Korsika prefektinin nümayəndəsinin ilin sonuna qədər iki açıq qarışıq dəniz və hava limanı həmkarlar ittifaqının (SMO) yaradılmasına razılaşmaması ada sakinlərini qəzəbləndirib. Halbuki 2025-ci il yanvarın 1-dən adanın dəniz və hava limanlarını idarə etməyə davam etməsi üçün Ticarət və Sənaye Palatasına (CCİ) güzəştlər verilməli idi. Korsika prefektinin nümayəndəsinin əhəmiyyətli hüquqi risk barədə xəbərdarlığı adanın icra şurasının prezidenti Jil Simeoninin qəzəbinə səbəb olub. "Bu, müharibə elanıdır. Mənim üçün bu, müzakirə edilə bilməz, Korsika dəniz və hava limanlarını idarə edəcək beynəlxalq qruplar olmayacaq", - deyə J. Simeoni bildirib.

"Əsas problem nəqliyyatda rəqabət məsələsidir", - deyə adanın dörd hava limanı və altı limanı, habelə yüzlərlə səyahətçini gözləməyə məcbur edən tətil hərəkatını başlayan Korsika İşçiləri Həmkarlar İttifaqının (STC) məsul milli katibi Frekanza Mora Etyenn Santuçi yerli mətbuata açıqlayıb. O bildirib ki, ada sakinləri nəqliyyatda istər infrastruktur, istərsə də nəqliyyat xətləri rəqabəti ilə razılaşmırlar.




Adada Ticarət və Sənaye Palatalarının (CCI) işçilərinin tətili Korsika Prefektini təmsil edən Korsika İşləri üzrə Baş Katib (Sgac) Alexandre Patrounun CCI-nin gərgin Baş Assambleyasından sonra başlayıb.

Korsika İşçilər Həmkarlar İttifaqı hesab edir ki, 2025-ci il yanvarın 1-dən etibarən adanın dəniz və hava limanlarının idarə etməyə davam edə bilməsi üçün dövlət CCI-yə güzəştlər verilməsilə bağlı öz mövqelərinə yenidən baxmalı və müqavilələri təsdiq etməlidir.

Xatırladaq ki, uzun illərdir Korsika adası Fransadan muxtariyyət tələb edir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# “Əbədiyyətə hökm edənlər”in günü...

***Şahanə MÜŞFİQ***

“Müəllim keçmişin əmanətçisi, gələcəyin qurucusudur”- deyirdi müdriklərdən biri. Müəllim adı elə şərəfli ad, elə vüqarlı peşədir ki, min illərdir ondan uca ad dünyaya gəlməyib, gəlməyəcək də... Çünki müəllimin özünü də öyrədən müəllimdir. Necə deyirdi Həzrəti Əli: “Mənə bir hərf öyrədənin köləsi olaram”.

Bu gün o uca adın daşıyıcılarının- müəllimlərimizin günüdür- Beynəlxalq Müəllimlər Günü.

Bu əlamətdar gün UNESCO-nun qərarı ilə 1966-cı ildən qeyd edilir. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul olunub. Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır.

Beynəlxalq Müəllimlər Günü bütün dünyada müəllim əməyini qeyd etməyə, parlaq zəkaların və istedadlı gənclərin bu peşəyə cəlb olunmasına və bu sahədə saxlanılmasının həlli yollarını tapmağa və ümumiləşdirmələr aparmağa imkan yaradır.

Azərbaycanda Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. Ölkəmizdə bu günə dövlət səviyyəsində diqqət ayrılır.

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Məhz müəllimlərin, onların əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, aydın fikirli, müasir düşüncəli, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu cür insanların sayəsində isə cəmiyyət inkişaf edir.

Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməyində müəllimlərimizin əvəzsiz xidmətləri olub şübhəsiz.

Daim müəllim adını uca tutan, onun əməyini yüksək qiymətləndirən, “özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır”-deyən Ümummilli Lider Heydər Əliyev öz çıxışlarında müəllim haqqında həmişə xoş sözlər söyləyib. Onun tez-tez öz müəllimlərini də minnətdarlıqla xatırlaması, onların xidmətləri haqqında ürəkdolusu danışması cəmiyyətimiz üçün müəllimə verilən dəyərin əsl örnəyidir. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. O, deyirdi: “Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir”.

Bir zamanlar özü də pedaqoji fəaliyyətlə məşğul olan ölkə Prezidenti cənab İlham Əliyev də bu gün atasının miras qoyduğu siyasi irsi inamla davam etdirir, müəllimlərə hörmət və qayğı ilə yanaşır, onların rifah halının yaxşılaşdırılmasına çalışır. Onun müəllim adına və fəaliyyətinə verdiyi dəyər bu cümlədən aydın şəkildə görünür: “Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur”.

Henri Bruks Adams deyirdi ki, bir müəllim əbədiyyətə hökm edən insandır. Bu gün məhz həmin hökmranların günüdür. 5 oktyabr bütün ömrünü elmə, öyrətməyə, öyrənməyə həsr edən, cəmiyyətimizə yararlı vətəndaşlar yetişdirmək üçün qara saçlarını ağardan müəllimlərimizə 365 gün içərisindəki bir günlük minnətdarlığımızdır. Təəssüf ki, bəzən bu gün cəmiyyətdə müxtəlif müzakirələrə, fərqli fikirlərə səbəb olur. Lakin kimin nə düşünüb, nə danışmağından asılı olmayaraq, bu barədə ən doğru fikri əsrlər öncə dahi filosof Sokrat demişdi: “Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz”.

Gününüz mübarək, əbədiyyətə hökm edənlər!

# Cəmi 104 nömrəsi çapdan çıxmışdı...

## 106 yaşlı “Şeypur” jurnalı!

***Yeganə BAYRAMOVA***

Ədəbi-ictimai fikir tariximizdə xüsusi mərhələ sayılan satirik “Molla Nəsrəddin” jurnalı haqqında aparılmış tədqiqatlar bu nəşri yaxından tanımağımıza şərait yaradıb. Lakin eyni sözləri bir başqa satirik nəşr haqqında, görkəmli maarifçi, jurnalist və publisist Məmmədəli Sidqinin redaktorluğu ilə çap edilən “Şeypur” jurnalı barədə deyə bilmərik. Təəssüf ki, “Şeypur” elmi fikrin diqqətindən kənarda qalıb. Jurnal haqqında yalnız bəzi qısa mülahizələr var ki, bunların da çoxu qeyri-dəqiq olub.

Bu gün “Şeypur” jurnalının 106-cı ildönümüdür. Cəmi 14 nömrəsi çapdan çıxan bu jurnal 1918-ci il oktyabrın 5-dən 1919-cu il yanvarın 18-nə qədər fəaliyyət göstərib. Jurnal Bakıda “Turan” mətbəəsində həftədə 1 dəfə 8 səhifə həcmində Azərbaycan dilində çap olunurdu.

**“Əkinçinin varisləri”...**

Jurnalın redaktoru maarifçi Məhəmməd Tağı Sidqinin oğlu Məhəmmədəli Sidqi, naşiri isə Səməd Mənsur idi. Professor Hüseyn Həşimli tərəfindən “Əkinçinin varisləri” olaraq adlandırılan “Şeypur” jurnalı cəmiyyətimizdə mövcud olan ictimai-siyasi hadisə və proseslər, haqsızlıqlar, xalqımızın məişəti, yaşayış tərzi haqqında dövrün bir sıra maarifçi ziyalıları, ictimai xadimləri tərəfindən ədəbi-bədii və publisist üslubda işıqlandırılmış yazılarla zəngindir. Jurnalda Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik ideyaları təbliğ olunur, müstəqilliyə gedən yolda qarşıya çıxan əngəllər, bolşevik-daşnak fitnəkarlıqları və Bakı neftini ələ keçirməyə çalışan əcnəbi dövlətlərin çəkişmələri ifşa olunurdu. Bu da jurnalın müstəqillik illərinə qədər diqqətdən kənar qalmasına səbəb olan əsas amillərdən biridir. Bu dövr ərzində “Şeypur” satirik jurnalı haqqında bir sıra ədəbiyyatşünas alimlərimizin məqalələrində, monoqrafik tədqiqatlarında yalnız bəzi qısa qeydlərə rast gəlmək olur. “Şeypur”un səhifələrində Azərbaycanı yenidən işğal etmək istəyən rus bolşevizminin əsl niyyətləri, ermənilərin fitnəkarlıqları və əsassız torpaq iddiaları, 1918-ci ilin martında törətdikləri vəhşiliklər faktlarla birlikdə təhlil olunur və yeri gəldikcə, ciddi və ya satirik tərzdə öz əksini tapırdı. Bütün bunlara görə də, sovet dövründə jurnal “əks-inqilab” ruhlu mətbuat orqanı sayılaraq tədqiqata cəlb olunmayıb.


شیپور

**“Molla Nəsrəddin” ənənələrinin davamçısı**

“Şeypur” satirik jurnalı satirik-yumoristik üsullardan istifadə etməsi, tənqid hədəflərinin aydın olması, şeirlərdə siyasi kəskinliyi ilə “Molla Nəsrəddin” jurnalının ənənələrini davam etdirirdi. “Şeypurun lüğəti”, “Bakı xəbərləri”, “Poçt qutusu”, “Teleqraf xəbərləri” və s. məqalələri “Şeypur” jurnalının “Molla Nəsrəddin” ənənələrini davam etdirməsinə misal olaraq göstərə bilərik.

Jurnalda dərc olunan məqalələrin müəllifləri sırasında Məhəmmədəli Sidqi, Səməd Mənsur, Salman Mümtaz, Cəfər Cabbarlı, Əliabbas Müznib, Əmin Abid, Məmmədəli Nasir və başqalarının adlarını çəkmək olar. Hər satirik jurnalda olduğu kimi, “Şeypur”da da bədii və publisistik materialların müəllifləri yazılarında gizli imzalardan istifadə edirdilər. Məsələn, Səməd Mənsurun satirik şeirləri “Pampuşəli”, Məhəmmədəli Sidqi “Şeypur”, Cəfər Cabbarlı “Dağlızadə”, Əmin Abid “Qozqurab bəy” imzaları ilə yazılarını dərc edirdilər. Bunlardan əlavə, “Çalma”, “Lağlağı”, “Müsahib”, “Mömin çinovnik” kimi imzalar da müxtəlif müəlliflər tərəfindən jurnalda istifadə olunurdu.

Bu gün ədəbi-ictimai fikir tariximizdə mühüm rol oynayan “Şeypur” satirik jurnalının geniş və əhatəli tədqiqi Hüseyn Həşimlinin “Məmmədəli Sidqi və “Şeypur” jurnalı”, “Şeypur” jurnalı və ədəbi-tarixi həqiqətlər” adlı monoqrafiyalarında və “Şeypur” jurnalı (1918-1919-cu illər)” adlı monoqrafiyada öz əksini tapıb. Əməkdar elm xadimi, professor Hüseyn Həşimli tərəfindən jurnalın bütün sayları transliterasiya edilərək latın əlifbası ilə 2014-cü ildə nəşr olunub.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı “91-lər”dən Ağabəy Əsgərova qardaşı

**HƏSƏN ƏSGƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***İdman***

# Həndbol üzrə Azərbaycan klublarının avrokubok oyunlarının vaxtı açıqlanıb




Həndbol üzrə Azərbaycan klublarının avrokuboklardakı oyunlarının təqvimi açıqlanıb.

Azərbaycan Həndbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, ölkə çempionu “Qarabağ” Avropa Kubokunda mübarizəyə 1/32 finaldan başlayacaq.

İlk rəqib Lüksemburqun “Differdanj” klubudur. Qarşılıqlı razılaşmaya əsasən, mərhələnin hər iki oyunu Bakıda olacaq. Oktyabrın 5-də “AHF Arena” İdman Kompleksində keçiriləcək ilk matçda “Qarabağ” komandası nominal meydan sahibi olacaq. Qarşılaşma saat 14:45-ə təyin olunub. Bu komandaların cavab matçı isə 1 gün sonra eyni saatda keçiriləcək.

Turnirdəki digər təmsilçimiz “Azəryol” da rəqibi ilə Bakıda, “AHF Arena”da qarşılaşacaq. Ukraynanın “Qaliçanka” klubu ilə matçlar oktyabrın 5- 6-da saat 17:00-da olacaq.

Azərbaycan Kubokunun qalibi “Kür” isə Yunanıstan təmsilçisi “İonias” ilə səfərdə üz-üzə gələcək. Oktyabrın 5-də Afina Gimnastika Arenasında keçiriləcək ilk matçın start fiti Bakı vaxtı ilə saat 19:00-da səsləndiriləcək. Ertəsi gün isə bu komandaların dueli saat 17:30-da start götürəcək.

Kişi həndbolçulardan ibarət “Kür” klubu Avropa Kubokunda mübarizəyə “Parnassos Strovolu” komandası ilə oyunlarla başlayacaq. Kipr təmsilçisi ilə qarşılaşmalar Mingəçevirdə Kür Olimpiya Tədris-İdman Mərkəzində təşkil olunacaq. İlk oyun oktyabrın 26-sı saat 17:00-da, cavab matçı isə bir gün sonra saat 16:00-da keçiriləcək.

Ölkə çempionatının gümüş mükafatçısı “Bakı” isə səfərdə meydana çıxacaq. Monteneqronun “Lovçen Çetine” komandası ilə hər iki matç rəqib meydanında oynanılacaq. Oktyabrın 26 və 27-nə təyin olunan qarşılaşmalar Bakı vaxtı ilə saat 20:00-da start götürəcək.

# Avro-2025: Azərbaycanın futzal yığması seçmə mərhələyə ilk raunddan başlayacaq

Azərbaycanın 19 yaşadək futzalçılardan ibarət yığması 2025-ci ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsinə yanvar ayında start verəcək.

Azərbaycan Futzal Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, reytinq cədvəlinin 27-ci sırasında qərarlaşan milli komanda mübarizəyə bu dəfə ilkin mərhələdən qoşulacaq.

Bu raundun püşkatma mərasimi oktyabrın 31-də keçiriləcək. Püşk öncəsi komandalar artıq səbətlərə bölünüb. 1-ci səbətdə Gürcüstan, Azərbaycan, Şimali Makedoniya, 2-ci səbətdə Kosovo, Litva, Cəbəllütariq, 3-cü səbətdə isə Malta, Almaniya, San-Marino və Estoniya seçmələri yer alıb. Azərbaycan millisi öz qrupunun birinci komandası olacaq.

Reytinq cədvəlində yer alan 35 komandadan 10-u ilkin mərhələdə iştirak edəcək. Onlar 3 qrupda mübarizə aparacaqlar. Qrupların ikisində 3, birində 4 kollektiv yer alacaq. Yalnız qrup birinciləri əsas mərhələyə vəsiqə qazanacaqlar. İlkin mərhələnin görüşləri gələn il yanvarın 21-dən 26-dək oynanılacaq.

Əsas mərhələdə isə 28 komanda 4 qrupda mübarizə aparacaq. Bu mərhələnin oyunları martın 25-30-da baş tutacaq. Yekunda qrup qalibləri final mərhələsinə yüksələcəklər.

Final mərhələsinin matçları gələn il 28 sentyabr - 5 oktyabrda Moldovanın paytaxtı Kişineuda təşkil olunacaq.

# Azərbaycan millisinin hazırlıq planı və səfər proqramı bəlli olub

Futbol üzrə Azərbaycan yığmasının UEFA Millətlər Liqasında Estoniya və Slovakiya ilə oyunlar üçün hazırlıq planı və səfər proqramı bəlli olub.

AZƏRTAC xəbər verir ki, milli komanda oktyabrın 7-də toplaşacaq və ayın 8-9-da Neftçi Futbol Mərkəzində məşq keçəcək. Yığma oktyabrın 9-da, saat 15:00-da Estoniyanın paytaxtı Tallinə yollanacaq. Baş məşqçi Fernandu Santuş komandanı oktyabrın 10-da, Bakı vaxtı ilə saat 18:00-da “Lilleküla” stadionunda Estoniya seçməsi ilə oyunöncəsi son məşqə çıxaracaq.

Millimiz Estoniya yığması ilə görüşdən bir gün sonra - oktyabrın 12-də səhər məşqə çıxacaq, Bakı vaxtı ilə saat 14:00-da isə Bakıya qayıdacaq. Oktyabrın 13-də, saat 17:00-da Tofiq Bəhramov adına Respublika Stadionunda Slovakiya yığması ilə oyunöncəsi son məşq olacaq.

Qeyd edək ki, Azərbaycan milli komandası C liqasının I qrupu çərçivəsində oktyabrın 11-də səfərdə Estoniya yığması ilə, oktyabrın 14-də isə Bakıda Slovakiya seçməsi ilə qarşılaşacaq. Hər iki oyun eyni vaxtda - saat 20:00-da başlayacaq.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4800
Sifariş: 2256
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI